**Prezident İlham ƏLİYEV:** Bəli. Keçən dəfə biz Mehribanla gəlib burada dualar etdik. Burada bir məscid yarıdağılmış vəziyyətdə idi. Bu da bulaqdır.

**Əminə ƏRDOĞAN:** Burada nə qədər bulaq var imiş?

**Prezident İlham ƏLİYEV:** Burada 17 bulaq var. Çünki Şuşada 17 məhəllə olub, 17 məscid olub, 17 bulaq olub. Ermənilər bizim binalarımızı bax, bu vəziyyətə salıblar.

**Bilal ƏRDOĞAN:** Yəni səfalət içində yaşayırdılar?

**Prezident İlham ƏLİYEV:** Bəli, səfalət içində yaşayırdılar. Bu binaların hamısı sovetlər dönəmindən qalanlardır. Baxın, bunlar müharibənin izləridir. Burada küçə döyüşləri gedirdi. Buralar hamısı belə dağılmış vəziyyətdədir.

**Prezident Rəcəb Tayyib ƏRDOĞAN:** Xarıbülbül.

**Prezident İlham ƏLİYEV:** Xarıbülbül bu gülün, çiçəyin adıdır.

**Bilal ƏRDOĞAN:** Sadəcə, burada bitir?

**Prezident İlham ƏLİYEV:** Bəli, biz onu orada göstərəcəyik. O da Vaqifin məqbərəsidir. Qarabağ xanının vəziri olub.

**Prezident Rəcəb Tayyib ƏRDOĞAN:** Yeni inşa edilib?

**Prezident İlham ƏLİYEV:** Onu mənim atam tikdirmişdi. Ermənilər sökdülər. Biz indi bərpa edirik. Bir aya hazır olacaq. Molla Pənah Vaqif İbrahimxəlil xanın vəziri, eyni zamanda çox məşhur şair olub. 1982-ci ildə mənim atam onun məzarı üstündə bax, bu məqbərəni inşa etdirmişdi. Ermənilər də onu sökmüşdülər.

İndi biz Şuşanın tarixi bir yerinə - Cıdır düzünə gedirik.



## Azərbaycan və Türkiyə prezidentləri Şuşada birgə nahar ediblər

**İyunun 15-də Şuşada Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğan birgə nahar ediblər.**

# dostluğun, qardaşlığın, birliyin təntənəsi

## Ali qonağın şərəfinə

İyunun 16-da Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin və birinci xanım Mehriban Əliyevanın adından Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğanın və xanımı Əminə Ərdoğanın şərəfinə nahar verilib. AZƏRTAC xəbər verir ki, sonra xatirə hədiyyələri təqdim olunub.













# Azərbaycan-Türkiyə: dostluğun, qardaşlığın, birliyin təntənəsi

## Türkiyə Azərbaycanın yanında yer almaqda davam edəcək







## Prezident Rəcəb Tayyib Ərdoğanın çıxışı






*Əvvəli 1-ci səh.*

- Azərbaycan Milli Məclisinin hörmətli sədri!

Əziz millət vəkilləri, xanımlar və cənablar!

Sizləri - müzəffər ölkənin parlamentinin bütün üzvlərini Türkiyədəki 84 milyon qardaşınızın adından bir millət, iki dövlət anlayışı ilə sevgi və bəxtiyarlıqla salamlayıram. Xoşbəxtəm, çünki Can Azərbaycandayam. Xoşbəxtəm, çünki Qarabağı azad etmiş qardaş Azərbaycanın Milli Məclisində sizlərlə birlikdəyəm. Xoşbəxtəm, çünki müstəqilliyinin otuzuncu ilinə çatan Azərbaycandayam. Qarabağın azad edilməsi Azərbaycanın müstəqil keçən otuz ilinin ən önəmli hadisəsidir.

Bu Zəfərlə Qafqazda qanayan bir yara qapanmış, bölgədə davamlı sülh və sabitlik üçün böyük fürsət yaranmışdır. Qafqazdakı sülh və sabitlikdən təkcə Azərbaycan deyil, Ermənistan da daxil olmaqla, bütün bölgə ölkələri, hətta bütün dünya qazanacaq. Biz də azərbaycanlı qardaşlarımızla bölgənin tamamilə inkişafı, rifahın yüksəlməsi, sabitliyin möhkəmlənməsi üçün üzərimizə düşəni yerinə yetirməyə bütün səmimiyyətimizlə hazırıq.

Geridə qoyduğumuz otuz ildə - Qarabağda yaşanan böhranlı dövrdə kimlərin əlinə nə keçdiyi, kimlərin bu işdən qazanclı çıxdığı, kimlərin də itirdiyi çox yaxşı bilinir. Canı yananlar, qanı tökülənlər, acı çəkənlər, maddi və mənəvi olaraq itirənlər ancaq Qarabağda yaşayan insanlardır. Asan deyil, otuz il. Mənim azərbaycanlı qardaşlarım öz məskənlərindən, təəssüf ki, otuz ildir köçkün düşüblər. O torpaqlar işğal altında idi. İşğal altındakı həmin torpaqlar otuz il sonra, çox şükür, yenidən sahiblərinə qovuşdu.

Qarabağda otuz ildir davam edən münaqişənin həll olunmamasına müşahidəçi qalanlar, daha doğrusu, münaqişənin davam etməsi üçün səy göstərənlər daim qazananın tərəfində olublar. Davamlı sülhə gedən yolun bölgədəki bütün xalqların və dövlətlərin qarşılıqlı etimada əsaslanaraq inkişaf etdirəcəkləri əməkdaşlıqdan keçdiyinə inanırıq.

Böyük bir liderlik göstərərək bu Zəfəri və sülhü Azərbaycana qazandıran Azərbaycan Ordusunun Ali Baş Komandanı və Azərbaycan Prezidenti hörmətli qardaşım İlham Əliyevi bir daha təbrik edirəm. Liderlərinin arxası ilə Qarabağda Zəfər qazanmaq üçün tək yumruq, tək ürək olan, milli birlik və bərabərlik hisslərini ən yüksək səviyyədə nümayiş etdirən Azərbaycan xalqını təbrik edirəm. Gözlərini qırpmadan Vətən üçün, Qarabağ üçün, Qarabağın azadlığı üçün qəhrəmancasına mübarizə aparan Azərbaycan Silahlı Qüvvələrini təbrik edirəm. Şəhidlərimizin hər birinə Allahdan rəhmət diləyir, yaxınlarına başsağlığı verirəm.

Bu müqəddəs Vətən müharibəsi dövründə Türkiyə həm dövlət, həm də millət olaraq bütün qəlbi ilə Azərbaycanın yanında yer almışdır. Bu gün də bütün imkanlarımızla Azərbaycanın yanındayıq, bütün dünya bilsin ki, İnşallah, sabah da yanında olacağıq. Necə ki, Balkan müharibəsi zamanı Azərbaycanın Dövlət Himninin sözlərinin müəllifi Əhməd Cavad azərbaycanlı gənclərlə birlikdə Osmanlı ordusunun sıralarında döyüşübsə, necə ki, Çanaqqalada Azərbaycandan gələn igidlərlə Anadolunun dəliqanlıları birlikdə mübarizə aparıb, birlikdə şəhadətə ucalıb zəfər qazanıblarsa, necə ki, Qafqaz İslam Ordusunun aslanları - Nuru Paşanın əsgərləri o gün azərbaycanlı qardaşlarımızın yardımına gəlibsə, biz də bu gün və gələcəkdə bir və bərabər olacağıq. Azərbaycanın aydınlığı aydınlığımız, sevinci sevincimiz, azadlığı azadlığımız, taleyi taleyimiz, kədəri kədərimizdir.

Hörmətli qardaşlarım, Nuru Paşanın Qafqaza gəldiyi dövrdə ermənilər 12 mindən çox türkü, müsəlmanı qətlə yetirmişdilər. Qafqazda tarixin qara səhifələrinə yazılacaq bir qətliam yaşanmışdır. Türk millətinə hər cür iftira atanlar əvvəlcə buralara, Qafqaza, Azərbaycana baxmalıdırlar. Həm də təkcə yüz il əvvələ deyil, otuz il bundan əvvəl Qarabağda yaşananlara, Xocalıda yaşananlara baxmalıdırlar. Sonra vicdanları imkan verərsə, bizə yönəltdikləri ittihamları oturub onlarla ayrıca danışarıq. Amma onların gözləri var, görməz, qulaqları var, eşitməz. Ürəkləri onsuz da duyğularını itirib. Qarabağı, Azərbaycanın işğal altındakı torpaqlarını otuz il ərzində yaxıb-yıxanları, gedərkən də geridə qalan hər şeyi yandıranları görməyənlər azadlıq mübarizəsinə mane olmaq üçün səfərbər oldular. İndi gəlsinlər, Füzulini görsünlər. Bu yerlərin hər tərəfi dağıdılmış, yandırılmış, tar-mar edilmişdir. Gəlsinlər, Qarabağı görsünlər. Hər şey ortadadır. Dünən yol boyunca buraların halını gördük. Oraları nə hala salıblar. Buraları necə bombalayıb, yandırıb gediblər. Onlar gələrkən işğalçı, gedərkən isə tarmaredici idilər.

Təkcə bu davranış belə Qarabağın kimin Vətəni olduğunu göstərmək üçün kifayətdir. Azərbaycanlılar otuz il əvvəl Qarabağdan çıxmaq məcburiyyətində qalanda heç bir yeri dağıtmadılar, heç bir evi yandırmadılar. Çünki insan öz Vətənini dağıda bilməz, öz Vətənini yandıra bilməz. Amma Qarabağ onların Vətəni olmadığı üçün hər şeyi yandıraraq, dağıdaraq getdilər. Onların yandırdıqları kəndləri, dağıtdıqları şəhərləri Azərbaycan indi yenidən inşa edir və İnşallah, buraları birlikdə inşa edəcəyik və yeni bir Qarabağ meydana gətirəcəyik.

Qardaşlarım, mədəniyyət ilə vandallıq arasındakı fərqi görmək istəyən gəlsin Qarabağda iki dönəm arasındakı fərqə baxsın. Qarabağ coğrafi baxımdan dünyanın ən gözəl bölgələrindən biri olmaqla yanaşı, mədəniyyət baxımından da ən zəngin yerlərindən biri idi. İnşallah, yenə elə olacaq. Türkiyə olaraq, İnşallah, bu prosesdə də qardaş Azərbaycanın yanında yer almaqda davam edəcəyik.

Əziz qardaşlarım, dünən qardaşım İlham Əliyev və heyətlərimizlə birlikdə Şuşada idik, azad Qarabağ torpaqlarında Azərbaycan bayrağının qürurla dalğalandığını görməyin sevincini bilavasitə yaşadıq. Şuşa Qarabağ xanlığının banisi Pənahəli xan dövründən bəri, adətən, təbii bir İncəsənət Akademiyası kimi, musiqinin, ədəbiyyatın, incəsənətin ən yüksək səviyyədə yaşadığı və yaşadıldığı şəhər olmuşdur. Pənahəli xanın, xüsusilə şeirləri bu gün də sevilərək oxunan vəziri Molla Pənah Vaqifdən başlayaraq, Şuşa ədəbiyyatın mərkəzi xarakterini qorumuşdur. Qartal yuvası kimi qayaların üstündə səmaya yaxın qurulması ilə əlaqədar Şuşada mədəniyyətin, incəsənətin, ədəbiyyatın ilhamı daim bol olub. Bu şəhər dahi bəstəkar Üzeyir bəy Hacıbəylinin, Bülbülün, Xurşidbanu Natəvanın, Rəşid Behbudovun və daha neçə-neçə incəsənət xadimlərinin, şairlərin yurdudur. Əhməd bəy Ağaoğlu kimi təkcə Azərbaycanda deyil, Türkiyə və türk dünyasında da fikirləri ilə söz sahibi olmuş mütəfəkkirlərin yurdu Şuşa bu gün bir daha mədəniyyətlə, - heç narahat olmayın, - dirçəlir.

Şuşanın Azərbaycanın mədəniyyət paytaxtı elan edilməsi və geridə qoyduğumuz günlərdə Cıdır düzündə keçirilən "Xarıbülbül" musiqi festivalı bu baxımdan dünyaya verilən açıq bir mesajdır. Vaqif poeziya festivalının da hazırlıqlarının davam etdiyini eşitməkdən məmnunam. Bu il Azərbaycanın mədəniyyət paytaxtı olan Şuşanı gələn il Türk dünyasının mədəniyyət paytaxtı olaraq görməkdən məmnunluq duyarıq. Türk dünyasının hər tərəfindən gələcək mədəniyyət və incəsənət əhlinin bu gözəl şəhərdə görüşməsi, Şuşanın qədim tarixinə verilən ən gözəl salam olacaqdır.

Əlbəttə, təkcə Şuşa və ya Qarabağ deyil, Azərbaycanın və türk dünyasının hər yeri böyük şairlər və incəsənət xadimləri yetişdirmişdir. Məsələn, bu il Nizami Gəncəvinin anadan olmasının 880-ci ildönümüdür. Əsrlərboyu şairlər onunla yarışmağa və ona çatmağa çalışıblar. "Avni" təxəllüsü ilə şeirlər yazan Fateh Sultan Mehmet xanın bu əsərində də eyni hissiyyata rast gəlinir:

*Bu kelam ile Nizami işidürse sözüni*
*İlteler sana hased Sa'di vü Selman bu gice.*

Bu il ayrıca Ahi Evranın anadan olmasının 850-ci, Əlişir Nəvainin anadan olmasının 580-ci, Hacı Bektaşi Vəlinin vəfatının 750-ci, Yunus Əmrənin vəfatının 700-cü ildönümüdür. Keçən il Fərabinin anadan olmasının 1300-cü ili idi. Dünyada bu qədər zəngin və yüksək mədəni dəyərləri olan millətlərin sayı çox azdır. Biz bu dəyərlərimizi həm yeni nəsillərimizə, həm də bütün dünyaya izah etməliyik. Hamısını da rəhmətlə yad edərək burada saydığım və saya bilmədiyim bütün şəxslər mədəniyyətimizin sütunları olduğu kimi, dünya mədəniyyətinin də dəyərləridir.

İnsanlıq onların əsərlərindəki hikmətlərin sirrinə vaqif olduqca dünyamızdakı məsələləri həll etmək asanlaşacaqdır. Keçmişdən gələcəyə quracağımız körpü ilə mədəniyyətimizi yenidən yüksəltmək, layiq olduğu yerə çatdırmaq bizim əlimizdədir. Birliyimizi, bərabərliyimizi, dostluğumuzu, qardaşlığımızı nə qədər gücləndirsək, bir-birimizə nə qədər möhkəm sarılsaq, bu hədəfə o qədər tez nail olarıq.

Qardaşlarım, Qarabağ Zəfərinin Azərbaycana, Qafqaza və dünyaya gətirəcəyi faydalarının dəyəri zaman keçdikcə daha yaxşı dərk ediləcək. Bu Zəfərdən heç kim narahat olmasın. Çünki bu, fəlakətin deyil, inşanın, zülmün deyil, ədalətin, kobudluğun deyil, zərifliyin, müharibənin deyil, sülhün, qanın deyil, qəlbin Zəferidir. Həqiqətən, bu Qələbədən sonra görülən və görüləcək işlərə baxdıqda yaratdığımız mənzərənin necə canlanacağı görünəcək. Hər şeydən əvvəl Qarabağın hər yerinə sabitlik, əmin-amanlıq və ümid hakim olub. Evlərindən, yurdlarından otuz ildir ayrı düşən azərbaycanlı qardaşlarımıza evlərinə qayıtmaq yolu açılmışdır. İnşallah, sonrakı gəlişimizdə bu torpaqların insanlarının evlərinə yerləşdiyini görməyin sevincini yaşayacağıq. Onlara indidən bu müraciəti Azərbaycan parlamentindən mən də edirəm. Bir an əvvəl, İnşallah, evləriniz inşa edilir, ediləcək və oralara yerləşməyinizi biz də həsrətlə gözləyirik.

İşğalın səbəb olduğu davamlı münaqişə vəziyyətindən qaynaqlanan yorucu gərginlik ortadan qalxıb. İndi yollar sürətlə inşa edilir, su kəmərləri çəkilir, elektrik stansiyaları bir tərəfdən qurulur, bir tərəfdən açılır. Bunları gözlərimlə gördüm, ona görə söyləyirəm. Bir tərəfdən, infrastruktur obyektləri tikilir. Biz də, inşallah, TOKİ-mizlə bölgədə məktəb, xəstəxana və buna bənzər bir çox əsərləri inşa etməyə çalışacağıq.

Naxçıvan ilə Bakını bir-biri ilə birləşdirəcək Zəngəzur dəhlizinin bölgəmizə gətirəcəyi rahatlığın və zənginliyin tərifi mümkün deyil. Bölgəmizdə və bütün dünyada zalımın zülmünün əbədi olmadığı, bir gün mütləq haqqın, ədalətin bərqərar olacağı hər kəsə məlumdur. Qarabağ eyni zamanda dünyanı öz siyasi və iqtisadi maraqlarının arenası olaraq görənlərin hesablarının pozulduğu yerdir. Üstəlik, bütün bu proseslər Azərbaycan ilə birlikdə Ermənistan üçün də yeni bir dövrün başlanğıcıdır. Məsələn, Zəngəzur dəhlizində fəaliyyətə başlayacaq dəmir yolu ilə ermənilər də rahatlıqla Moskvaya və bütün dünyaya çıxa biləcəklər və beləliklə, özləri də özlərini saldıqları blokadadan xilas ola biləcəklər.

Qardaşımla birlikdə təklifimizi etdik. Nə idi təklifimiz? Gəlin, altı ölkə bir platforma formalaşdıraq: Rusiya, Türkiyə, Azərbaycan, İran, Ermənistan və Gürcüstan. Bu platforma ilə birlikdə artıq bölgədə bir sabitlik meydana gəlsin, bölgədə düşmənçiliklər ortadan qalxsın. Burada demək olar ki, təkcə Gürcüstanın bəzi özünəməxsus sualları var idi. Son Türkiyə səfərində cənab Baş nazirlə də bu məsələləri bir daha müzakirə etdim. Dedim, bu, Gürcüstanın da lehinə olacaq, bu addımı ataq. Bax, biz Ermənistan ilə aramızdakı narahatlıqları bilirik. Amma biz bütün bunlara baxmayaraq, azərbaycanlı qardaşlarımızın narahatlıqlarının da aradan qaldırılmasını istəyirik. Eyni qaydada sizin də Rusiya ilə problemlərinizin həllinə bu platforma töhfə verəcək. "Çalışaram" dedi. "Yaxşı olar" dedik.

Çünki bu bölgənin sülhə ehtiyacı var. Buna nail olmalıyıq. Ermənistan Azərbaycan ilə problemlərini həll etdikcə Türkiyə olaraq biz də lazımi addımları atacağıq. Türkiyə sərhədlərinin açılmasının Ermənistana verəcəyi faydalar saymaqla bitməz. Bu Zəfəri hər kəsin ortaq zəfərinə çevirmək bizim əlimizdədir. Bir daha Qafqazın boynuna kimsənin əsarət zənciri vura bilməməsi üçün qarşımıza çıxan fürsətləri hamımız birlikdə ən yaxşı şəkildə dəyərləndirməliyik. Biz bu mübarizəni özümüz və dostlarımızla birlikdə "Dünya beşdən böyükdür", deyərək qlobal səviyyədə də aparırıq.

Mən buraya NATO-nun Zirvə toplantısından gəldim. NATO-nun Zirvə toplantısında da məhz bu məsələləri müzakirə etdik, bunları dəyərləndirdik. Çox şükür, səmərəli görüşlərlə buraya gəldik. Amma dünyanın problemləri bitmir, dünyada həll ediləcək hələ çox problemlər var. Amma dik dursaq, möhkəm dursaq, bir olsaq, bərabər olsaq, Allahın izni ilə bunları həll edərik. İnşallah, mədəniyyət günəşimizi yenidən ən yüksək zirvəyə qaldıraraq, sülhü və ədaləti bölgəmizdə və dünyada hakim edəcəyimiz günlər yaxındır. Çıxışımı böyük şair Bəxtiyar Vahabzadənin bu misraları ilə bitirmək istəyirəm:

*Bir ananın iki oğlu,*
*Bir ağacın iki qolu,*
*O da ulu, bu da ulu,*
*Azərbaycan, Türkiyə.*
*Dinimiz bir, dilimiz bir,*
*Ayımız bir, ilimiz bir,*
*Eşqimiz bir, yolumuz bir,*
*Azərbaycan, Türkiyə.*

Hamınızı sevgi ilə, məhəbbətlə salamlayıram. Salamat qalın.

# Azərbaycan-Türkiyə: dostluğun, qardaşlığın, birliyin təntənəsi

## Ulu Öndər Heydər Əliyevin məzarını ziyarət



**Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğan iyunun 16-da Fəxri xiyabana gələrək xalqımızın Ümummilli Lideri, müasir müstəqil Azərbaycan dövlətinin memarı və qurucusu Heydər Əliyevin xatirəsini ehtiramla yad edib, abidəsi önünə gül dəstəsi qoyub.**

AZƏRTAC xəbər verir ki, Ulu Öndərin ömür-gün yoldaşı, görkəmli oftalmoloq-alim akademik Zərifə xanım Əliyevanın xatirəsi də ehtiramla anılıb, məzarı üzərinə gül dəstəsi qoyulub.

## Şəhidlərin xatirəsinə ehtiram



**Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğan iyunun 16-da Şəhidlər xiyabanını ziyarət edib.**

AZƏRTAC xəbər verir ki, Türkiyə Prezidenti Azərbaycanın müstəqilliyi və ərazi bütövlüyü uğrunda mübarizədə canlarından keçmiş qəhrəman Vətən övladlarının xatirəsinə ucaldılmış "Əbədi məşəl" abidəsinin önünə gül dəstəsi qoydu.

Prezident Rəcəb Tayyib Ərdoğan Şəhidlər xiyabanında şəhid türk əsgərlərinin xatirəsinə ucaldılmış abidəni ziyarət edərək önünə gül dəstəsi qoydu.



## Səfər başa çatdı

**Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğanın Azərbaycan Respublikasına rəsmi səfəri iyunun 16-da başa çatıb.**

AZƏRTAC xəbər verir ki, hər iki ölkənin dövlət bayraqlarının dalğalandığı Heydər Əliyev Beynəlxalq Aeroportunda Türkiyə Prezidentinin şərəfinə fəxri qarovul dəstəsi düzülmüşdü. Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğanı və xanımı Əminə Ərdoğanı hava limanında Baş nazirin birinci müavini Yaqub Eyyubov, xarici işlər nazirinin müavini Xələf Xələfov və digər rəsmi şəxslər yola saldılar.



## Bakı Olimpiya Stadionunda Avropa çempionatının final mərhələsinin Türkiyə-Uels matçı keçirilib

*Əvvəli 1-ci səh.*

AZƏRTAC xəbər verir ki, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev, birinci xanım Mehriban Əliyeva, qızları Leyla Əliyeva, ölkəmizdə rəsmi səfərdə olan Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğan və xanımı Əminə Ərdoğan oyuna baxıblar.

Prezident İlham Əliyev, birinci xanım Mehriban Əliyeva və qızları Leyla Əliyeva Avropa Futbol Federasiyaları Assosiasiyasının (UEFA) prezidenti Aleksander Çeferin ilə görüşüblər. Oyun başa çatandan sonra Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Prezident Rəcəb Tayyib Ərdoğanı və xanımı Əminə Ərdoğanı yola saldılar.











# İlham ƏLİYEV: “Biz Ermənistanın hərbi təcavüzü ilə bağlı İslam Əməkdaşlıq Təşkilatı tərəfindən Azərbaycanın ədalətli mövqeyinin ardıcıl şəkildə dəstəklənməsini yüksək qiymətləndiririk”

**İyunun 16-da İslam Əməkdaşlıq Təşkilatının Elm və Texnologiya üzrə onlayn formatda ikinci Zirvə toplantısı keçirilib. AZƏRTAC xəbər verir ki, tədbirdə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin videoformatda çıxışı təqdim edilib.**



## Prezident İlham Əliyevin çıxışı

- Hörmətli dövlət və hökumət başçıları.

Hörmətli Baş katib.

İslam Əməkdaşlıq Təşkilatının Elm və Texnologiya üzrə 2-ci Zirvə toplantısının təşkilinə görə Birləşmiş Ərəb Əmirlikləri hökumətinə və İslam Əməkdaşlıq Təşkilatının Baş Katibliyinə təşəkkürümü bildirmək istəyirəm.

Azərbaycan İslam Əməkdaşlıq Təşkilatı ailəsinin fəal üzvüdür və həm ikitərəfli əsasda, həm də beynəlxalq təşkilatlar çərçivəsində üzv dövlətlərlə sıx əməkdaşlıq edir.

Son bir neçə il ərzində Azərbaycanda İslam Əməkdaşlıq Təşkilatına üzv dövlətlərin xarici işlər, mədəniyyət, turizm, təhsil, əmək və digər nazirləri səviyyəsində 10-a yaxın görüş keçirilib.

Azərbaycan hər zaman İslam ölkələri arasında həmrəyliyin gücləndirilməsi istiqamətində səylər göstərib. 2017-ci ildə 54 dövlətin iştirakı ilə IV İslam Həmrəyliyi Oyunlarına evsahibliyi etməyimiz bunun növbəti təzahürü idi. Bununla yanaşı, biz İslam Əməkdaşlıq Təşkilatına üzv ölkələrin vətəndaşları üçün ölkəmizdə təhsil almaq imkanı verən təqaüd proqramına da başlamışıq.

Biz Ermənistanın hərbi təcavüzü ilə bağlı İslam Əməkdaşlıq Təşkilatı tərəfindən Azərbaycanın ədalətli mövqeyinin ardıcıl şəkildə dəstəklənməsini yüksək qiymətləndiririk. İslam Əməkdaşlıq Təşkilatı tərəfindən 1994-cü il Kasablanka Zirvə görüşündən bu günə qədər Ermənistanın Azərbaycana qarşı təcavüzünü pisləyən, ölkəmizin suverenliyi və ərazi bütövlüyünü dəstəkləyən 80-dən artıq qətnamə qəbul edilib. Bu mənada Ermənistan Respublikasının Azərbaycan Respublikasına qarşı təcavüzü ilə bağlı 2016-cı ildə İslam Əməkdaşlıq Təşkilatının Təmas Qrupunun təsis edilməsi xüsusi qeyd edilməlidir.

Azərbaycan da, öz növbəsində, hər zaman İslam Əməkdaşlıq Təşkilatına üzv ölkələri dəstəkləyib, İslam ölkələri arasında daha güclü həmrəyliyin və əməkdaşlığın təmin edilməsi naminə səylər göstərib.

COVID-19 pandemiyası dünya üçün misilsiz çağırışlar yaradıb. Qoşulmama Hərəkatının sədri qismində Azərbaycan hərəkatın koronavirusla mübarizəyə həsr edilmiş Zirvə toplantısının keçirilməsi təşəbbüsünü irəli sürmüş və 2020-ci ilin may ayında həmin tədbiri uğurla təşkil etmişdir. Biz həmçinin 2020-ci ilin dekabr ayında BMT Baş Assambleyasının dövlət və hökumət başçıları səviyyəsində Xüsusi Sessiyasının keçirilməsinin təşəbbüskarı olmuşuq.

Azərbaycan Ümumdünya Səhiyyə Təşkilatına 10 milyon ABŞ dolları həcmində könüllü maliyyə töhfəsi edib və koronavirusla əlaqədar 30-dan artıq ölkəyə, o cümlədən İslam Əməkdaşlıq Təşkilatına üzv olan bir sıra dövlətlərə humanitar və maliyyə yardımı göstərib.

“Peyvənd millətçiliyi”, inkişaf etmiş və inkişafda olan ölkələr arasında peyvəndlərə çıxışla bağlı qeyri-bərabərlik bizi dərindən narahat etməkdə davam edir. Beynəlxalq hesabatlara əsasən, bu günə qədər dünyada mövcud olan peyvənd dozalarının 82 faizi zəngin ölkələr tərəfindən alınmış, peyvəndlərin yalnız 0,3 faizi azgəlirli ölkələrin payına düşmüşdür.

Biz bir daha inkişaf etmiş ölkələri və beynəlxalq donor təşkilatlarını inkişaf etməkdə olan, xüsusilə ən az inkişaf etmiş ölkələrə zəruri maliyyə yardımı göstərməyə çağırırıq.

Bildiyiniz kimi, Ermənistan 30 ilə yaxın idi ki, ölkəmizin təqribən 20 faiz ərazisini işğal altında saxlayırdı. Ermənistan azərbaycanlılara qarşı etnik təmizləmə aparıb. Bir milyondan artıq azərbaycanlı qaçqın və məcburi köçkünə çevrilib. Ermənistan Xocalı soyqırımını törədib. Xocalı soyqırımı 13 ölkə tərəfindən tanınıb.

Ermənistan silahlı qüvvələrinin Azərbaycanın işğal olunmuş ərazilərindən dərhal, tam və qeyd-şərtsiz çıxarılmasını tələb edən BMT Təhlükəsizlik Şurası tərəfindən 1993-cü ildə qəbul edilmiş dörd qətnamə, Qoşulmama Hərəkatının bəyannamələri, İslam Əməkdaşlıq Təşkilatının qətnamələri, ATƏT və digər beynəlxalq təşkilatların müvafiq qərarları münaqişənin həllinin hüquqi bazasını təşkil edirdi. Lakin Ermənistan beynəlxalq ictimaiyyətin tələblərinə məhəl qoymayaraq, torpaqlarımızı əbədi olaraq işğal altında saxlamağa cəhd edirdi. Ermənistan 2020-ci ilin iyul, avqust və sentyabr aylarında üç dəfə dövlət sərhədi və keçmiş təmas xətti boyu hərbi təxribatlara əl ataraq günahsız mülki əhalinin qətlə yetirilməsinin və müharibənin alovlanmasının səbəbkarı oldu.

Ötən ilin sentyabr ayında Ermənistanın irimiqyaslı hərbi hücumuna cavab olaraq Azərbaycan əks-hücum əməliyyatına başladı və işğal altında olan ərazilərin böyük hissəsini azad etdi.

44 günlük Vətən müharibəsində tam məğlubiyyətə uğrayan Ermənistan 2020-ci ilin 10 noyabr tarixində kapitulyasiya aktına imza ataraq Azərbaycanın işğal altında olan digər ərazilərindən qoşunlarını çıxarmağa məcbur oldu.

Azərbaycan özü BMT Təhlükəsizlik Şurasının 1993-cü ildə qəbul etdiyi qətnamələrinin icrasını təmin etdi.

Beləliklə, Azərbaycan 30 illik münaqişəyə son qoydu və hərbi-siyasi yollarla ərazi bütövlüyünü və tarixi ədaləti bərpa etdi.

Biz müharibə zamanı İslam Əməkdaşlıq Təşkilatı tərəfindən nümayiş etdirilən qətiyyətli mövqeyi yüksək qiymətləndiririk. İslam Əməkdaşlıq Təşkilatı Azərbaycanı dəstəkləyən bəyanatlarla çıxış edib. Xüsusilə mən müharibənin ilk günlərindən bizə siyasi dəstək ifadə edən Türkiyə, Pakistan və Əfqanıstana minnətdarlığımı bildirmək istəyirəm.

Ermənistan 30 illik işğal dövründə Azərbaycanın işğal olunmuş ərazilərindəki bütün mədəni və dini abidələrimizi məqsədli şəkildə dağıdıb. Ermənistanın işğalı altında olmuş ərazilərdə yerləşən 67 məsciddən 65-i yerləyeksan edilib, iki məscidə isə ciddi zərər dəyib və onlar təhqir edilib.

Mən həmkarlarıma bizim şəhər və kəndlərimizin işğaldan əvvəl və sonrakı vəziyyəti ilə bağlı qısa məlumat və fotoşəkillərdən ibarət təsviredici kitab göndərəcəyəm. Orada Azərbaycanın dini və tarixi abidələrinin tamamilə məhv olunması və darmadağın edilməsi öz əksini tapıb.

İslam Əməkdaşlıq Təşkilatı öz qətnamələrində Azərbaycanın keçmiş işğal altında olan torpaqlarında Ermənistan tərəfindən İslam tarixi və mədəniyyət nümunələrinin, ibadət yerlərinin dağıdılması və təhqir edilməsini qətiyyətlə pisləyib.

Fürsətdən istifadə edərək İslam Əməkdaşlıq Təşkilatının Baş katibi cənab Yusif bin Əhməd əl-Osayminə aprel ayında ölkəmizə səfər etdiyinə və Qələbəmizlə bağlı səmimi təbrikinə görə xüsusi minnətdarlığımı bildirmək istəyirəm.

Baş katib vəzifəsində o, Azərbaycana altı dəfə səfər edib. Bu, onun ölkəmizə olan dəstək və ehtiramının təzahürüdür. Baş katib İslam Əməkdaşlıq Təşkilatının beynəlxalq nüfuzunun artması və üzv dövlətlər arasında həmrəyliyin möhkəmləndirilməsi işinə böyük töhfə verib.

Bu il İslam Əməkdaşlıq Təşkilatının Baş Katibliyi, İslam Əməkdaşlıq Təşkilatının Ermənistan Respublikasının Azərbaycan Respublikasına qarşı təcavüzü ilə bağlı Təmas Qrupunun üzvləri, habelə ICESCO-nun nümayəndə heyəti Azərbaycanın işğaldan azad olunmuş ərazilərinə səfər edib və Ermənistanın İslam irsinə qarşı törətdiyi vandalizmin şahidi olub.

Biz Ermənistanın İslam ölkələri ilə münasibətlərini gücləndirmək cəhdlərini müşahidə edirik. Məscidlərdən donuz və inək tövləsi kimi istifadə etmiş və bununla da bütün İslam ümmətinin hisslərini təhqir edən ölkə müsəlman dövlətlərinin və müsəlmanların dostu ola bilməz.

Bugünkü Zirvə toplantısının mövzusu elm və texnologiya olduğundan, vurğulamaq istərdim ki, ölkəmizin elmi və texnoloji potensialının gücləndirilməsi bizim başlıca prioritetlərimiz sırasındadır.

Azərbaycan beynəlxalq kosmik klubun üzvüdür. Bu gün bizim ikisi telekommunikasiya, biri isə Yer səthinin müşahidəsi üçün istifadə olunan üç peykimiz var.

Azərbaycan 2023-cü ildə Beynəlxalq Astronavtika Konqresinə evsahibliyi edəcək ölkə seçilib. Bu, beynəlxalq kosmik icma tərəfindən Azərbaycanın bu sahədə nailiyyətlərinin tanınmasının təzahürüdür.

Bu yaxınlarda Azərbaycanın növbəti onillik üçün sosial-iqtisadi inkişafına dair müəyyən etdiyim beş milli prioritet sırasında rəqabətli insan kapitalı və müasir innovasiyalar məkanının yaradılması da yer alır.

Hökumət innovasiyaların və startap ekosistemlərinin inkişafı ilə bağlı əməli addımlar atır.

Azərbaycan Ümumdünya İqtisadi Forumu ilə Dördüncü Sənaye İnqilabı Mərkəzləri Şəbəkəsinin Afiləedilmiş Azərbaycan Mərkəzinin yaradılması ilə bağlı saziş imzalayıb.

Mən işğaldan azad olunmuş bütün əraziləri yaşıl enerji zonası elan etmişəm. Biz bərpa və yenidənqurma işlərində ən müasir və innovativ texnologiyalardan istifadə edəcəyik. “Ağıllı şəhər” və “ağıllı kənd” konsepsiyaları tətbiq olunacaqdır.

Biz qardaş İƏT dövlətlərindən olan şirkətlərin Azərbaycanın işğaldan azad edilmiş ərazilərində yenidənqurma prosesində iştirakını görmək istərdik.

Sağ olun.

# Azərbaycan Respublikasının Prezidenti zati-aliləri cənab İlham Əliyevə

Zati-aliləri.

Azərbaycanın milli bayramı - Respublika Günü münasibətilə ən səmimi təbriklərimi çatdırıram.

Filippin xalqı ölkənizin daha böyük tərəqqiyə, rifaha və sülhə doğru irəliləməsinin bütün mərhələlərində Azərbaycan xalqını dəstəkləyir.

Əminəm ki, xalqlarımızın ortaq maraqları naminə birgə fəaliyyətimiz bundan sonra da davam etdiriləcək, dövlətlərimiz arasındakı dostluq və həmrəylik daha da güclənəcək.

Zati-aliləri, ən yüksək ehtiramımı qəbul etməyinizi xahiş edirəm.

***Rodriqo Roa DUTERTE,***
***Filippin Respublikasının Prezidenti***

# Azərbaycan və Türkiyə gənclərinin Zəfər Forumu

İyunun 16-da Bakı Konqres Mərkəzində Azərbaycan Respublikasının Gənclər Fondunun və Türkiyə Gənclər Fondunun (TÜGVA) birgə təşkilatçılığı ilə iki qardaş ölkə gənclərinin Zəfər Forumu keçirilib.

AZƏRTAC xəbər verir ki, forum Türkiyə və Azərbaycan prezidentlərinin tarixi Şuşa səfərindən sonra sarsılmaz Azərbaycan-Türkiyə qardaşlığının daha da möhkəmləndirilməsi və hər iki ölkə gəncləri arasında sıx əməkdaşlığın dəstəklənməsi məqsədilə təşkil olunub.

Azərbaycan Respublikası Gənclər Fondunun icraçı direktoru Fərid Cəfərov tədbirdə çıxış edərək bildirib ki, Azərbaycan Gənclər Fondu ilə Türkiyə Gənclər Fondu arasında sıx əməkdaşlıq mövcuddur. Məhz bu əməkdaşlığın nəticəsidir ki, ölkələrimiz arasında bu sahədə birgə tədbirlər və layihələr həyata keçirilir: “Əməkdaşlığımız bütün münasibətlərimiz kimi artıq səmimi dostluğa çevrilib. Dünən dövlətlərimiz arasında münasibətlər yeni mərhələyə qədəm qoydu. Artıq Azərbaycan və Türkiyə qardaş olmaqla yanaşı, həm də müttəfiq dövlətlərdir. Şübhəsiz, gənclər sahəsində fəaliyyət göstərən hər kəsin üzərinə də böyük məsuliyyət düşür. Belə ki, ortaq marağımızı bütün dünyaya çatdırmalıyıq”.

Fərid Cəfərov qeyd edib ki, Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə şanlı Ordumuzun qazandığı tarixi Zəfərə həsr olunan forumda hər iki ölkənin gənclər təşkilatları ilə yanaşı, Vətən müharibəsi qazilərinin də iştirakı tədbirin əhəmiyyətini daha da artırır. O, Türkiyə ilə daha böyük layihələrin həyata keçirilməsinin planlaşdırıldığını vurğulayıb. Türkiyə Gənclər Fondunun (TÜGVA) baş direktoru Enes Eminoğlu Azərbaycana Prezident Rəcəb Tayyib Ərdoğanın rəhbərlik etdiyi nümayəndə heyətinin tərkibində gəldiyini və ölkəmizdə bir çox görüşlər keçirdiklərini vurğulayıb: “Bir çox görüşlərdə iştirak etmişik. Ötən gün Şuşada olduq. Bütün bunlar çox tarixi və unudulmaz günlərdir. Biz Tərtər, Bərdə və Gəncəyə səfər etdiyimiz zaman tezliklə Şuşaya, eyni zamanda işğaldan azad olunmuş Qarabağa getmək arzularımızı ifadə etmişdik. Arzularımız həyata keçdi. Şuşa Bəyannaməsi ilə Şuşada Türkiyənin baş konsulluğu açılacaq. Azərbaycan üçün çox dəyərli olan Şuşa ümumilikdə türk dünyasının da mədəniyyət paytaxtı olacaq”.

Zəfər Forumunda iştirakdan məmnunluğunu bildirən Enes Eminoğlu forumun əhəmiyyətini xüsusi vurğulayıb.

Vətən müharibəsi qaziləri Mobil Əhmədzadə və Elnur Ələkbərov, aparıcı gənclər təşkilatlarının rəhbərləri Prezident, Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə şanlı Ordumuzun qazandığı Zəfərdə Türkiyə dövlətinin və xalqının, o cümlədən gənclərinin fəal dəstəyinin və postmünaqişə dövründə əməkdaşlığın əhəmiyyətindən danışıblar. Onlar Ulu Öndər Heydər Əliyevin “bir millət, iki dövlət” fəlsəfəsinə əsaslanan dostluq və qardaşlıq münasibətlərinin gənclər sahəsində də müxtəlif layihə və proqramlarla daha da möhkəmləndirilməsi ilə bağlı təkliflərini səsləndiriblər.

Çıxış edənlər Azərbaycan və Türkiyənin daim çətin anlarda bir-birinin yanında olduqlarını vurğulayaraq, xalqımızın Vətən müharibəsindəki Qələbəsinin həm Azərbaycan, həm də Türkiyə gəncləri arasında sonsuz coşqu və qürur hissi ilə qarşılandığını qeyd ediblər. Forumda qardaş ölkələrimizin gəncləri ikitərəfli münasibətlərin sürətlə inkişaf etdirilməsinə görə dövlət başçılarına minnətdarlıqlarını ifadə ediblər. Həmçinin Azərbaycan və Türkiyə gənclərinin qələbənin şərtləndirdiyi yeni dövrün reallıqlarına uyğun olaraq bütün platformalarda ortaq fəaliyyət göstərmələrinin vacibliyi qeyd olunub.

Dövlətlərimizin başçılarının ötən gün imzaladıqları tarixi Şuşa Bəyannaməsinin əhəmiyyətini qeyd edən natiqlər bununla bir milləti təmsil edən iki dövlətin qardaşlıq bağlarının daha da möhkəmləndiyini vurğulayıblar. Onlar bəyannamədə də qeyd edildiyi kimi, gənclərimiz arasında əlaqələrin daha da dərinləşdirilməsi, əməkdaşlığın genişləndirilməsi üçün səylə çalışacaqlarını bildiriblər. Forum iştirakçıları Azərbaycan həqiqətlərinin beynəlxalq informasiya platformalarında təbliği məqsədilə iki ölkənin gənclərinin bundan sonra da birgə və əlaqələndirilmiş şəkildə fəaliyyət göstərəcəklərini vurğulayıblar.

Foruma Əskişəhər və Gəncə şəhərlərindən onlayn qaydada fəal gənclərin səsləndirdikləri Yunus Əmrənin və Nizami Gəncəvinin şeirləri, eləcə də Əməkdar artist Zaur Əmiraslanovun “Çırpınırdın, Qara dəniz” mahnısını ifa etməsi iştirakçılar tərəfindən böyük maraqla qarşılanıb.

Minə yaxın gəncin iştirakı ilə hibrid şəkildə təşkil edilən forumda Azərbaycanın aparıcı gənclər təşkilatları, könüllülər, tələbələr və fəal gənclərlə yanaşı, hər iki ölkənin fondları tərəfindən elan edilən “Qarabağ Zəfəri” mövzusunda rəsm müsabiqəsinin azərbaycanlı və türkiyəli qalibləri, eləcə də TÜGVA-nın Türkiyənin 81 vilayətindəki nümayəndəliklərinin təmsilçiləri canlı və ya onlayn şəkildə qatılıblar.

# ADA Universitetində “Azərbaycanın Avratlantik məkanın sülh və təhlükəsizliyə töhfəsi” mövzusunda konfrans keçirilib

**ADA Universitetində “Azərbaycanın Avratlantik məkanın sülh və təhlükəsizliyə töhfəsi” mövzusunda konfrans keçirilib.**



AZƏRTAC xəbər verir ki, konfrans Latviyanın Azərbaycanda səfirliyi, NATO-nun Azərbaycanda əlaqələndirici səfirliyi və ADA Universiteti tərəfindən təşkil olunub.

Tədbirdə Azərbaycan Respublikası Prezidentinin köməkçisi, Prezident Administrasiyası Xarici siyasət məsələləri şöbəsinin müdiri Hikmət Hacıyev, Latviyanın Azərbaycandakı səfiri Dainis Qarants, NATO-nun Cənubi Qafqaz və Mərkəzi Asiyada xüsusi nümayəndəsi Ceyms Apaturay, ABŞ-ın Azərbaycandakı səfiri Örl Litzenberqer, Latviyanın sabiq müdafiə naziri və Latviyanın NATO parlament assambleyasında nümayəndə heyətinin üzvü Raymonds Bergmanis, İtaliyanın tanınmış tədqiqat mərkəzi olan Beynəlxalq Münasibətlər İnstitutunda Cənubi Qafqaz üzrə tədqiqatçı Svante Kornell və digərləri çıxış ediblər.

Azərbaycan Respublikası Prezidentinin köməkçisi, Prezident Administrasiyası Xarici siyasət məsələləri şöbəsinin müdiri Hikmət Hacıyev bildirib ki, Azərbaycan NATO ilə münasibətlərin inkişafı üzrə fəal təşəbbüslərlə çıxış edib. Azərbaycanla NATO arasında siyasi dialoq ən səmərəli mexanizmlərdəndir. Ölkəmiz təşkilatla əməkdaşlıq və dialoqun daha da genişlənməsini istəyir.

Prezidentin köməkçisi qeyd edib ki, Azərbaycan NATO-nun regional sabitliyi, təhlükəsizliyi diqqətlə izləməsini və birbaşa müdaxilə etməməsini yüksək qiymətləndirir. Azərbaycan postmünaqişə dövründə regional əməkdaşlıqda maraqlıdır və Zəngəzur dəhlizi regionda əməkdaşlığın uğurlu nümunəsinə çevrilə bilər.

Azərbaycanın beynəlxalq təhlükəsizliyin təmin olunmasında NATO-nun rolunu alqışladığını vurğulayan Hikmət Hacıyev bildirib ki, ölkəmiz təşkilatla mövcud sazişlərin tərəfdaşlıq prinsiplərinə sadiqdir.

Prezidentin köməkçisi deyib ki, Azərbaycan beynəlxalq münasibətlərin inkişafına böyük əhəmiyyət verir. “Azərbaycan Qoşulmama Hərəkatından beynəlxalq sülh və təhlükəsizliyə töhfə vermək üçün istifadə edir. Biz xüsusilə COVID-19-dan sonra yaranmış reallıqlar nəzərə alınmaqla, beynəlxalq münasibətlərdə sabitliyin təmin olunması üçün dəyərlərə, əməkdaşlığa diqqət veririk”, - deyə Hikmət Hacıyev əlavə edib.

Amerika Birləşmiş Ştatlarının Azərbaycanda səfiri Örl Litzenberqer çıxışında ölkənin Əfqanıstandakı fəaliyyəti üçün hər cür dəstək göstərməyə hazır olduğunu bildirib. Litzenberqer qeyd edib ki, bu məsələdə ABŞ Azərbaycana logistik dəstək göstərmək, həmçinin təcrübə mübadiləsi aparmağa hazırdır.

BMT-nin Azərbaycandakı rezident əlaqələndiricisi Qulam İshaqzai Qarabağ münaqişəsinə toxunaraq vurğulayıb ki, tərəflər sülh danışıqlarına tezliklə başlamalıdır. O, əfqan və azərbaycanlı qaçqınların oxşar talelərinin olmasını, hər iki ölkənin vətəndaşlarının müharibə zonasındakı dağıntılardan əziyyət çəkdiyini bildirib.

Konfransda çıxış edənlər Əfqanıstanda sülhməramlı fəaliyyətinə görə Azərbaycana təşəkkür ediblər.

Tədbir çərçivəsində Azərbaycanda yaşayan əfqan qaçqınların əl işlərindən ibarət sərgi də təşkil olunub.

# Şuşa Bəyannaməsi Azərbaycan-Türkiyə dostluğunun əyani təcəssümüdür

**"Dünən ölkəmizin həyatında çox mühüm bir hadisə baş verdi. Azərbaycan-Türkiyə dostluq, qardaşlıq münasibətləri müttəfiqlik haqqında Şuşa Bəyannaməsi ilə bir daha təsdiqləndi. Dövlət başçılarımızın timsalında formalaşmış Azərbaycan-Türkiyə qardaşlığı hazırda çox böyük uğurla davam etdirilir. Xüsusilə vurğulanmalıdır ki, Şuşa Bəyannaməsi prezidentlər İlham Əliyevin və Rəcəb Tayyib Ərdoğanın timsalında bu iki qardaş, dost dövlətlərinin dostluğunun dünyaya daha bir nümayişi oldu".**



Bunu AZƏRTAC-a açıqlamasında Milli Məclis sədrinin müavini, Gənclər və idman komitəsinin sədri Adil Əliyev bildirib.

Komitə sədri deyib: "Bəyannamənin imzalanması üçün Şuşa şəhərinin seçilməsi növbəti dəfə verilən aşkar mesajdır ki, Ermənistan bir dövlət olaraq viran qoyduğu Qarabağ işğaldan azad edilməklə, mədəni tədbirlərə evsahibliyi etməklə yanaşı, eləcə də diplomatik sazişlərin imzalandığı bir məkana çevrilməkdədir.

Bəyannamə mühüm əhəmiyyət kəsb edən bütün amilləri özündə əks etdirir. Sənəddə əksini tapan ən vacib məsələlərdən biri ölkələrimizin beynəlxalq müstəvidə birgə əməkdaşlığını davam etdirməsidir. Təəssüf ki, bəzi ölkələrin iki qardaş dövlətin bu qədər yaxın olmasından narahatlıqları özünü beynəlxalq müstəvidə də göstərir. Azərbaycan və Türkiyənin istər ikitərəfli, istərsə də çoxtərəfli müstəvidə bir-birini dəstəkləməyə davam edəcək. Bir neçə il əvvəl beynəlxalq tədbirlərin birində Prezident İlham Əliyevin "Türkiyə yoxdur, mən burdayam" deməsi və qardaş ölkənin mövqeyini ən yüksək səviyyədə müdafiə etməsi dünyaya qardaşlığımızın nümunəsini göstərmişdi. İqtisadi-ticari əlaqələr, mədəniyyət, təhsil, idman, gənclər siyasəti və digər sahələrdə münasibətlərin daha da inkişafını nəzərdə tutan Şuşa Bəyannaməsi bu qardaşlığın daha bir təsdiqidir. Sənəddəki mühüm məsələlərdən biri də enerji təhlükəsizliyi, xüsusilə "Cənub qaz dəhlizi" ilə bağlıdır. Bu, onu deməyə əsas verir ki, "Cənub qaz dəhlizi" yalnız iki qardaş ölkə üçün deyil, eləcə də Avropa üçün böyük önəm kəsb edir".

Adil Əliyev bildirib ki, Bəyannamədə müdafiə sahəsində əməkdaşlıq və qarşılıqlı hərbi yardımla bağlı məsələlərə də yer verilməsi olduqca önəmlidir. Bu, onu göstərir ki, ölkələrimiz bundan sonra da hər zaman bir yerdə olacaq, bir-birinin təhlükəsizliyinə töhfə verəcəklər. Təbii ki, qarşılıqlı hərbi təcrübənin öyrənilməsi olduqca vacibdir. Eyni zamanda müdafiə sənayesi sahəsində əməkdaşlığın genişləndirilməsi də sənəddə əksini tapan məsələlər sırasındadır. Bununla ölkələrimiz arasında müdafiə sənayesi sahəsində əlaqələr daha da inkişaf edəcək.

Zəngəzur dəhlizinin həyata keçirilməsi ilə ölkələrimiz arasında quru yolu ilə nəqliyyat əlaqəsi təmin ediləcək ki, bu da ölkə vətəndaşlarının qardaş Türkiyəyə rahat gediş-gəlişinə əlverişli şərait yaradacaq, eyni zamanda yüklərin daşınmasında Azərbaycanın tranzit ölkəyə çevrilməsində mühüm rol oynayacaq. Ölkəmizin İkinci Qarabağ müharibəsindəki Qələbəsi ilə bölgədə yeni geosiyasi vəziyyət yaranıb və regionun bütün dövlətləri bundan faydalana bilərlər.

Xatırlatmalıyıq ki, Vətən müharibəsi başlanan gündən Türkiyə bizim ədalətli mövqeyimizi dəstəkləyən ilk ölkə oldu. Sonradan digər dost ölkələr də haqlı mövqeyimizə qoşuldular. Ermənistanın təcavüzkar siyasətini pislədilər.

A.Əliyev bildirib ki, Vətən müharibəsindən sonra azad edilmiş bölgələrimizin bərpasında qardaş Türkiyənin də fəal iştirakı bizi çox sevindirir. Eyni zamanda Şuşa şəhərində Türkiyənin baş konsulluğunun açılmasına dair qəbul olunmuş qərar aparılacaq abadlıq-quruculuq işlərində qardaş ölkənin daha yaxından iştirak edəcəyinin anonsunu verir.

Ümummilli Lider Heydər Əliyevin dediyi kimi: "Biz bir millət, iki dövlətik". Bu gün hər kəs qardaşlığımızın, dostluğumuzun, gücümüzün fərqindədir.

# Azərbaycanda fəaliyyət göstərən siyasi partiyalar Şuşa Bəyannaməsinin imzalanması ilə əlaqədar bəyanat yayıblar

**Azərbaycanda fəaliyyət göstərən siyasi partiyalar "Azərbaycan Respublikası ilə Türkiyə Respublikası arasında müttəfiqlik münasibətləri haqqında Şuşa Bəyannaməsi"nin imzalanması ilə əlaqədar bəyanat yayıblar.**

AZƏRTAC bəyanatı təqdim edir. Bəyanatda deyilir:

"2021-ci il iyunun 15-də - tarixi Qars müqaviləsindən yüz il sonra iki dost və qardaş ölkə arasında imzalanan müttəfiqlik münasibətlərinə dair Şuşa Bəyannaməsi böyük tarixi və strateji əhəmiyyətə malikdir. Türkiyə Cümhuriyyətinin qurucusu Mustafa Kamal Atatürk və Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyevin söylədikləri "Azərbaycanın sevinci bizim sevincimiz, kədəri bizim kədərimizdir" və "Bir millət, iki dövlət" ifadələrinin xalqlarımızın milli-mənəvi sərvəti kimi dəyərləndirildiyi Bəyannamə bu iki ölkənin bütün strateji əlaqələri ən yüksək səviyyəyə qaldırır. Azərbaycan-Türkiyə münasibətlərinin bu şəkildə inkişafı dostlarımızı sevindirir, ölkəmizin güclənməsini, rifahını və təhlükəsizliyini istəməyənləri isə məyus edir.

Biz - Azərbaycanda fəaliyyət göstərən siyasi partiyalar müstəqillik, suverenlik, ərazi bütövlüyü, beynəlxalq səviyyədə tanınmış sərhədlərin toxunulmazlığı, dövlətlərin daxili işlərinə qarışmamaq prinsiplərini rəhbər tutan, milli maraq və mənafelərini müdafiə və təmin etməyə yönəlmiş müstəqil xarici siyasət həyata keçirən hər iki ölkə tərəfindən müttəfiqlik münasibətlərinin qurulmasının siyasi və hüquqi mexanizmlərini müəyyənləşdirən Şuşa Bəyannaməsinin mühüm tarixi və strateji əhəmiyyət kəsb etdiyini bildiririk.

Bəyannamədə milli mənafelər baxımından siyasi, hərbi və təhlükəsizlik sahələrində əlaqələndirilmiş və birgə fəaliyyətlərin təşviq edilməsi xüsusi yer tutur. Tərəflərdən hər hansı birinin müstəqilliyinə, suverenliyinə, ərazi bütövlüyünə, beynəlxalq səviyyədə tanınmış sərhədlərinin toxunulmazlığına və ya təhlükəsizliyinə qarşı üçüncü dövlət və ya dövlətlər tərəfindən təhdid və ya təcavüz edildiyi təqdirdə, birgə məsləhətləşmələr aparılması, beynəlxalq hüquq kontekstində bu təhdid və ya təcavüzün aradan qaldırılması istiqamətində birgə fəaliyyət göstərilməsini dəstəkləyirik.

Şuşa Bəyannaməsində Silahlı Qüvvələrimizin müasir tələblərə uyğun olaraq yenidən formalaşdırılması və modernləşdirilməsi istiqamətində birgə səylərin göstərilməsi, iki ölkənin silahlı qüvvələrinin birlikdə fəaliyyət qabiliyyətinin artırılması, hər iki ölkənin Təhlükəsizlik şuralarının milli təhlükəsizlik məsələləri üzrə müntəzəm birgə iclasların keçirilməsini yüksək dəyərləndiririk.

Milli iqtisadiyyatların və ixracın şaxələndirilməsi üzrə səylərin artırılması, iqtisadi əlaqələrə böyük töhfə verəcək, regionda və Türkiyəni birləşdirəcək Zəngəzur dəhlizinin açılması, regionda nəqliyyat-kommunikasiya əlaqələrinin bərpası, beynəlxalq nəqliyyat dəhlizlərinin inkişafının təşviqi kimi aktual məsələləri, həmçinin Azərbaycan və türk diasporları arasında əməkdaşlığın daha da inkişaf etdirilməsi, milli mənafelərin qorunmasına dair tarixi həqiqətlərin dünya ictimaiyyətinə çatdırılmasında diaspor fəaliyyətinin əlaqələndirilməsi təşəbbüslərini alqışlayırıq.

Azərbaycan-Türkiyə münasibətləri hazırda özünün ən uca zirvəsinə yüksəlib. Xalqlarımızın eyni soykökə, dilə, dinə, mədəniyyətə və bir çox digər ortaq dəyərlərə, sıx bağlara malik olması ölkələrimizi həmişə bir-birinə yaxın edib, xalqlarımız sevincli, kədərli günlərdə daim bir-birinin yanında olub. Ermənistanın 30 illik təcavüzünə son qoyulmasında, işğal altındakı torpaqların düşməndən azad olunmasında, Azərbaycanın ərazi bütövlüyünün bərpa edilməsində Türkiyənin mənəvi-siyasi dəstəyi xalqımızın hər bir nümayəndəsi və siyasi partiya üzvləri tərəfindən yüksək qiymətləndirilir. Hazırda Qafqaz regionunda sabitliyin və təhlükəsizliyin möhkəmləndirilməsi, bütün iqtisadi və nəqliyyat əlaqələrinin bərpası, eləcə də region ölkələri arasında münasibətlərin normallaşdırılması və uzunmüddətli sülhün təmin edilməsi istiqamətində ölkələrimizin birgə təşəbbüsləri dünya dövlətləri üçün ən gözəl nümunədir.

Biz - Azərbaycanda fəaliyyət göstərən siyasi partiyalar Azərbaycanın və bütövlükdə Türk dünyasının qədim mədəniyyət beşiyi olan Şuşa şəhərində Azərbaycan və Türkiyə arasında imzalanmış Şuşa Bəyannaməsini ölkələrimizin keyfiyyət baxımından yeni əlaqələrinin inkişafı və hər iki ölkənin gələcək birgə fəaliyyətinin vacib əsası hesab edir və bu yüksək strateji müttəfiqlikdə dövlətimizin yanında olduğumuzu bəyan edirik.

Yaşasın Azərbaycan-Türkiyə dostluğu və qardaşlığı!

1. Yeni Azərbaycan Partiyasının Sədr müavini - Mərkəzi Aparatın rəhbəri Tahir Budaqov
2. Vətəndaş Həmrəyliyi Partiyasının sədri Sabir Rüstəmxanlı
3. "Ana Vətən" Partiyasının sədri Fəzail Ağamalı
4. Bütöv Azərbaycan Xalq Cəbhəsi Partiyasının sədri Qüdrət Həsənquliyev
5. Böyük Quruluş Partiyasının sədri Fazil Mustafa
6. Vəhdət Partiyasının sədri Tahir Kərimli
7. Azərbaycan Demokratik Maarifçilik Partiyasının sədri Elşən Musayev
8. Demokratik İslahatlar Partiyasının sədri Asim Mollazadə
9. Vətəndaş Birliyi Partiyasının sədri Sabir Hacıyev
10. Milli Cəbhə Partiyasının sədri Razi Nurullayev
11. REAL Partiyasının sədri İlqar Məmmədov
12. Azərbaycan Ümid Partiyasının sədri İqbal Ağa-zadə
13. Klassik Xalq Cəbhəsi Partiyasının sədri Mirmahmud Fəttayev
14. Azərbaycan Xalq Partiyasının sədri Pənah Hüseyn
15. Azərbaycan Demokrat Partiyasının sədri Sərdar Cəlaloğlu
16. Böyük Azərbaycan Partiyasının sədri Elşad Musayev
17. Vətəndaş və İnkişaf Partiyasının sədri Əli Əliyev
18. Azərbaycan Milli İstiqlal Partiyasının sədri Arzuxan Əlizadə
19. Ağ Partiyasının sədri Tural Abbaslı
20. "Ədalət" Partiyasının sədri İlyas İsmayılov
21. Vahid Azərbaycan Milli Birlik Partiyasının sədri Hacıbaba Əzimov
22. Milli Dirçəliş Hərəkatı Partiyasının sədri Fərəc Quliyev
23. Müasir Müsavat Partiyasının sədri Hafiz Hacıyev
24. Azad Demokratlar Partiyasının sədri Sülhəddin Əkbər
25. Azərbaycan Liberal Demokrat Partiyasının sədri Fuad Əliyev
26. "Milli Vəhdət" Partiyasının sədri Yunus Oğuz
27. Aydınlar Partiyasının sədri Qulamhüseyn Əlibəyli
28. Azərbaycan Naminə Alyans Partiyasının sədri Abutalıb Səmədov
29. Azərbaycan Sosial Demokrat Partiyasının sədri Araz Əlizadə
30. Yeni Zaman Partiyasının sədri Musa Ağayev
31. Azərbaycan Sosial Rifah Partiyasının sədri Əsli Kazımova
32. Cümhuriyyət Xalq Partiyasının sədri Bədrəddin Quliyev
33. Müstəqil Xalq Partiyasının sədri Əflan İbrahimov
34. "Birlik" Partiyasının sədri Xudadat Xudiyev
35. Milli Həmrəylik Partiyasının sədri Əlisahib Hüseynov
36. Azərbaycan Respublikaçılar Partiyasının sədri Sübut Əsədov
37. Azərbaycan Azad Respublikaçılar Partiyasının sədri Kamil Seyidov
38. Azadlıq Partiyasının sədri Əhməd Orucov
39. Azərbaycan Təkamül Partiyasının sədri Teyyub Qənioğlu
40. Azərbaycan Milli Demokrat Partiyasının sədri Tufan Kərimov
41. Azərbaycan Liberal Partiyasının sədri Əvəz Temirxan
42. "Qorqud" Partiyasının sədri Firudin Kərimov
43. Milli Demokrat İdrak Partiyasının sədri Osman Əfəndi
44. Milli Konqres Partiyasının sədri İxtiyar Şirinov
45. Gələcək Azərbaycan Partiyasının sədri Ağasif Şakiroğlu
46. Sosial Ədalət Partiyasının sədri Mətləb Mütəllimov
47. Azərbaycan Kommunist Partiyası - Hacı Hacıyev, Rauf Qurbanov
48. "Azərbaycan Mübarizləri" Partiyasının sədr müavini Səadət Müslümova".

# Azərbaycan-Türkiyə münasibətləri ən yüksək zirvədədir

Tarix daha bir Türkiyə-Azərbaycan qardaşlığına şahidlik etdi, yeni bir dostluq və qardaşlıq dastanı yazıldı. Xalqımız üçün əlamətdar gündə - 15 İyun - Milli Qurtuluş Günündə Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğanın Azərbaycana gəlişi, işğaldan azad edilmiş Şuşaya səfəri çox mühüm tarixi hadisədir.

Bunu AZƏRTAC-a açıqlamasında Milli Məclisin Regional məsələlər komitəsinin sədri Siyavuş Novruzov bildirib.

Qeyd edilib ki, Xalqımızın Ümummilli Lideri Heydər Əliyevin "Türkiyə və Azərbaycan bir millət, iki dövlətdir" kəlamı İkinci Qarabağ müharibəsində bir daha ən yüksək səviyyədə öz təsdiqini tapmışdı. Qardaş Türkiyə Azərbaycana Vətən müharibəsində güclü və qətiyyətli mənəvi-siyasi dəstək verməklə böyük öndər Mustafa Kamal Atatürkün "Azərbaycanın sevinci sevincimiz, kədəri kədərimizdir" ifadəsinin tarixi, milli və siyasi əsaslara söykəndiyini növbəti dəfə əməli surətdə sübuta yetirmişdi. Budur, müharibədən sonra da bütün dünya iki dövlətin sarsılmaz həmrəyliyinə və birliyinə şahidlik edir. Azərbaycanın mədəniyyət paytaxtı olan Şuşada hər iki ölkə başçısının səsləndirdiyi fikirlər də bu reallığın bariz nümunəsidir.

Komitə sədri diqqətə çatdırıb ki, xüsusilə "Azərbaycan Respublikası ilə Türkiyə Respublikası arasında müttəfiqlik münasibətləri haqqında Şuşa Bəyannaməsi"nin imzalanması ən yüksək zirvədə olan Azərbaycan-Türkiyə münasibətlərinin keyfiyyətcə yeni mərhələyə qədəm qoyduğunu göstərir. 1921-ci ildə imzalanmış Qars müqaviləsindən tam yüz il sonra iki dost və qardaş ölkə arasında müttəfiqlik münasibətlərinə dair Şuşa Bəyannaməsinin imzalanması, heç şübhəsiz, müstəsna siyasi və tarixi əhəmiyyət daşıyır. Elə təsadüfi deyil ki, Birgə Bəyannamədə tarixi Qars müqaviləsinə istinad edilir. Prezident İlham Əliyevin qeyd etdiyi kimi: "Tarixi Qars müqaviləsi düz 100 il bundan əvvəl imzalanmışdır. Bu da böyük rəmzi məna daşıyır. Azad edilmiş Şuşa şəhərində 100 ildən sonra müttəfiqlik haqqında imzalanan Birgə Bəyannamə bizim gələcək işbirliyimizin istiqamətini göstərir".

Xüsusi qeyd etmək yerinə düşər ki, Şuşa Bəyannaməsi Azərbaycan ilə Türkiyənin bütün sahələrdə səmərəli əməkdaşlığının inkişafını özündə ehtiva edir. Beynəlxalq müstəvidə birgə fəaliyyət, siyasi, iqtisadi-ticarət, mədəniyyət, təhsil, idman, gənclər siyasəti, diaspor, eləcə də enerji və nəqliyyat sahəsində sıx əməkdaşlıq bəhs olunan Bəyannamədə öz əksini tapıb. Ən mühüm məqam isə tərəflərdən hər hansı birinin fikrincə, onun müstəqilliyinə, suverenliyinə, ərazi bütövlüyünə, beynəlxalq səviyyədə tanınmış sərhədlərinin toxunulmazlığına və ya təhlükəsizliyinə qarşı üçüncü dövlət və ya dövlətlər tərəfindən təhdid və ya təcavüz edildiyi təqdirdə, tərəflərin birgə məsləhətləşmələr aparması və bu təhdid və ya təcavüzün aradan qaldırılması məqsədilə BMT Nizamnaməsinin məqsəd və prinsiplərinə müvafiq təşəbbüs həyata keçirməsi, bir-birinə BMT Nizamnaməsinə uyğun lazımi yardım göstərməsi, Silahlı Qüvvələrin güc və idarəetmə strukturlarının əlaqələndirilmiş fəaliyyətinin təşkili il əlaqədar məsələnin müttəfiqlik münasibətləri haqqında Şuşa Bəyannaməsində yer almasıdır. Bu, Azərbaycan və Türkiyənin yeni mərhələdə də hərbi-siyasi təhlükəsizlik sahəsində birlikdə fəaliyyət göstərəcəyini, ortaq milli maraqlar əsasında hərəkət edəcəyini göstərir. Təbii ki, postmunaqişə mərhələsində və hazırkı geosiyasi reallıqlar fonunda belə birgə fəaliyyətin təşkili həm hər iki ölkənin milli maraqları, həm də regional təhlükəsizlik üçün olduqca vacib və əhəmiyyətlidir.

"Beləliklə, Azərbaycan və Türkiyə bu gün dünya miqyasında nadir əməkdaşlıq və müttəfiqlik nümunəsi göstərir. Bu reallıqlar iki dövlətin bundan sonra da dostluq və qardaşlıq prinsiplərinə əsaslanan çoxşaxəli münasibətlərinin uğurla inkişaf edəcəyini deməyə əsas verir. Heç şübhəsiz, Azərbaycan və Türkiyə birgə addımlayaraq yeni zəfərlər qazanacaq, böyük tarixi nailiyyətlərə imza atacaq, - deyə S.Novruzov vurğulayıb.

# Azərbaycan ombudsmanı Özbəkistanda İqtisadi Əməkdaşlıq Təşkilatının tədbirində çıxış edib

Azərbaycan Respublikasının insan hüquqları üzrə müvəkkili (ombudsman) Səbinə Əliyevanın rəhbərlik etdiyi nümayəndə heyəti Özbəkistanın paytaxtı Daşkənd şəhərində İqtisadi Əməkdaşlıq Təşkilatına üzv dövlətlərin korrupsiyaya qarşı mübarizə orqanlarının rəhbərləri və ombudsmanlarının 4-cü iclasında iştirak edib.

Ombudsman Aparatından AZƏRTAC-a bildiriblər ki, Özbəkistanla yanaşı, Türkiyə, Pakistan, İran, Əfqanıstan, Qazaxıstan, Qırğızıstan, Türkmənistan və Tacikistandan olan nümayəndələrin də qatıldığı həmin tədbirdə ombudsman Səbinə Əliyeva da çıxış edərək, korrupsiyaya qarşı mübarizə sahəsində Azərbaycan ombudsmanının həyata keçirdiyi fəaliyyət barədə ətraflı məlumat verib.

Çıxış zamanı bu sahədə həyata keçirilən tədbirlərin effektivliyinin artırılması məqsədilə ombudsman tərəfindən qanunvericiliyin təkmilləşdirilməsi istiqamətində təkliflərin verildiyi, ölkədə korrupsiyaya qarşı mübarizənin gücləndirilməsi üzrə strateji sənədlərin hazırlanması və icrası prosesində Ombudsman təsisatının yaxından iştirak etdiyi iştirakçıların diqqətinə çatdırılıb.

Korrupsiya ilə mübarizə sahəsində Azərbaycanın Ombudsman təsisatının dövlət qurumları, vətəndaş cəmiyyəti təsisatları və ixtisaslaşmış beynəlxalq təşkilatlarla, o cümlədən Avropa Şurasının Korrupsiyaya qarşı Dövlətlər Qrupu ilə sıx əməkdaşlıq etdiyi qeyd olunub. Eyni zamanda ombudsman Azərbaycanın işğaldan azad olunmuş ərazilərində işarələnməmiş minaların xəritələrinin Ermənistan tərəfindən verilməməsinin regionda sülh və təhlükəsizliyə ciddi maneə olduğunu vurğulayaraq aidiyyəti beynəlxalq insan hüquqları təşkilatlarını bu istiqamətdə Ermənistana təzyiq göstərməyə çağırıb.

# Heydər Əliyev Fondu Şuşada "Qarabağın mədəni irsi" nəşrini təqdim edib




Heydər Əliyev Fondu "Qarabağın mədəni irsi" adlı nəşrlər toplusu hazırlayıb. Topluya ədəbiyyat, musiqi, memarlıq sahələrini, xalq sənətkarlığını və xalçaçılıq sənətini əks etdirən 5 nəşr daxildir.

AZƏRTAC xəbər verir ki, "Xalq sənətkarlığı" nəşrində Azərbaycan xalqının zəngin yaradıcılığında mühüm yerlərdən birini tutan, onun həyat və məişət, gündəlik güzəranı ilə bağlı olan xalq sənətlərindən bəhs olunur. Ən qədim dövrlərdən zəmanəmizədək yaşayan bu sənət növü xalqın geyimindən tutmuş müxtəlif təsərrüfat məmulatı və bəzəyinə qədər böyük bir sahəni əhatə edir. Nəşrdə təqdim edilən materiallar bol xammal ehtiyatı ilə zəngin olan Azərbaycanın ayrılmaz hissəsi - Qarabağda bir çox sənət sahələrinin, o cümlədən ağacişləmə, baramaçılıq, başmaqçılıq, bədii tikmə, boyaqçılıq, culfaçılıq, daşişləmə, dəmirçilik, dəriçilik, dulusçuluq, dülgərlik, həsirçilik, xalçaçılıq və digər sənətlərin geniş yayıldığını, özünəməxsus inkişaf yolu keçdiyini nümayiş etdirir.

Qarabağ bölgəsinin çoxəsrlik tarixə malik və Azərbaycan xalqının mədəni sərvətinin mühüm hissəsini təşkil edən musiqi irsi haqqında foto və məlumatlar "Musiqi" adlı nəşrdə cəmlənib. Təkrarsız maddi və qeyri-maddi mədəniyyət abidələri ilə seçilən Qarabağ Azərbaycan musiqisinin məbədi hesab olunur. XVIII əsrdə yaranmış Qarabağ xanlığı Azərbaycan ədəbiyyatı və incəsənətinin, xüsusilə də musiqi sənətinin inkişafına güclü təkan vermişdir. Toplunun Qarabağın musiqi irsinə aid olan nəşrində XIX-XX əsrlərdə cərəyan edən mürəkkəb mədəni-tarixi proseslərdə, regionun mənəvi mühitinin inkişafında, Şərq-Qərb musiqi dialoqunun formalaşmasında Qarabağ musiqiçilərinin müstəsna rol oynaması faktı ortaya qoyulur. Nəşrdə Qarabağın aşıq mühiti, muğam, bəstəkarlıq və vokal məktəbləri barədə məlumat və fotolar təqdim edilir.

"Ədəbiyyat" nəşrində Qarabağda xalqımızın yaratdığı, qədim və zəngin mədəniyyətin bir qolunu təşkil edən mədəni sərvətlər, söz və sənət nümunələri haqqında məlumatlar diqqətə çatdırılır. Əsrlərboyu Qarabağda Azərbaycan incəsənətinin müxtəlif sahələri: xalq musiqisi, aşıq sənəti, muğamat və ifaçılıq xüsusi inkişaf yolu keçmişdir. Şifahi xalq ədəbiyyatı nümunələrində Qarabağ ərazisindəki yer adları bu torpaqların Azərbaycan möhürüdür. Azərbaycanın yazılı ədəbiyyatında Qarabağ mövzusu geniş yer tutmuşdur. Nəşrdə qarabağlı şair və yazıçılar barədə məlumatlar və fotolar təqdim edilir.

"Memarlıq" haqqında nəşrdə Azərbaycan ərazisində mövcud olan memarlıq abidələrinin forma, tipoloji və konstruktiv baxımından zənginliyi barədə məlumatlar toplanıb. "Qarabağın mədəni irsi" toplusunun bu bölməsində zamanın tələblərinə uyğun yaradılan memarlıq nümunələri haqqında məlumatlar fotolar və qrafik rəsmlər vasitəsilə diqqətə çatdırılır.

Qədim zamanlardan Azərbaycanın əlverişli iqlim şəraiti burada xalçaçılığın inkişafına təkan vermişdir. Azərbaycan xalçaları arasında Qarabağ xalçaları xüsusi yer tutur. "Xalçaçılıq" nəşrində Qarabağ ərazisində xalçaçılığın yaranma tarixi, xalçaların işlənmə texnikası, Qarabağ xalça qrupunun xarakterik xüsusiyyətləri, bu bölgədə toxunan xalçaların səs-sorağının bütün dünyadan gəldiyi qeyd olunur.

# Leyla Əliyevanın təşəbbüsü ilə MDU-nun Nəbatat bağına xarıbülbül gülü qələmləri verilib



İyunun 16-da Rusiyanın Azərbaycan Gənclər Birliyinin (RAGB) sədri, Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla Əliyevanın təşəbbüsü ilə Moskva Dövlət Universitetinin "Aptekarski oqorod" Nəbatat bağına Qarabağın rəmzi olan xarıbülbül gülü qələmləri verilib.

AZƏRTAC xəbər verir ki, tədbirdə Nəbatat bağının direktoru Aleksey Reteyum iştirak edib. O xatırladıb ki, bu güllər Nəbatat bağına RAGB tərəfindən verilib.

A.Reteyum deyib: "Biz Rusiyanın Azərbaycan Gənclər Birliyi ilə çoxdan əməkdaşlıq edirik. RAGB Nəbatat bağına bundan əvvəl də hədiyyələr edib. Qarabağın rəmzi olan bu nadir səhləblər təkcə Azərbaycanda bitir və bizə 6 nüsxə səhləb hədiyyə ediblər. Növbəti aprel ayında bu səhləblər Nəbatat bağının qonaqlarını sevindirəcəkdir. Bu bitki üçün subtropik iqlim şəraiti lazımdır. Nəbatat bağının oranjereyası belə bir iqlim şəraitini təmin edə bilər".

RAGB-nin məsul katibi Ceyhun Hüseynov mərasimdə çıxış edib. O bildirib ki, RAGB-nin sədri Leyla Əliyevanın təşəbbüsü ilə MDU-nun Nəbatat bağına xarıbülbül gülü qələmləri verilməsi hər bir azərbaycanlı üçün əlamətdar hadisədir. C.Hüseynov deyib: "Xarıbülbül Qarabağın rəmzidir. Artıq aprel ayında arzu edən hər kəs Nəbatat bağına gələrək bu gülün açılmasına tamaşa edə biləcək".



# *Leyla ABDULLAYEVA:* "Ermənistan XİN-nə üçtərəfli Birgə bəyanatların icrasına yönəlik addımlar atmalarını tövsiyə edirik"

**Əvvəlcə qeyd etmək istərdik ki, qonşu ölkələrin rəhbərlərinin səfərini şərh etmək Ermənistan Xarici İşlər Nazirliyinin həddi deyil.**

Qeyd etdiyiniz açıqlamaya gəldikdə isə, hazırda Ermənistan XİN-də rəhbərliyin olmadığını nəzərə alaraq, bu qurumda qalanların və bu açıqlamanı hazırlayanların nəzərinə çatdırmaq istərdik ki, ölkə öz ərazilərini işğal edə bilməz, yalnız işğaldan azad edər. Elə 44 günlük Vətən müharibəsi nəticəsində də Azərbaycan öz torpaqlarını işğaldan azad etdi və ərazi bütövlüyünü təmin etdi.

AZƏRTAC xəbər verir ki, bu fikirləri Azərbaycan Respublikası Xarici İşlər Nazirliyinin Mətbuat xidməti idarəsinin rəisi Leyla Abdullayeva KİV-in Ermənistan XİN-i Azərbaycan və Türkiyə prezidentlərinin Şuşa səfərini sülh və təhlükəsizliyə təxribat kimi qiymətləndirməsinə və "Türk-Azərbaycan təcavüzü" ifadəsini işlətməsinə münasibət bildirərkən ifadə edib.

Leyla Abdullayeva bildirib: "Ermənistan XİN-nə öz ölkələri də daxil olmaqla, üç ölkə liderləri tərəfindən imzalanmış Birgə bəyanatlarla yaxından tanış olmalarını, bu bəyanatların icrasına yönəlik addımlar atmalarını tövsiyə edirik. Ermənistanın illüziyalara söykənərək deyil, real vəziyyəti dərk edərək davranması gərəkdir. Azərbaycan və Türkiyə prezidentlərinin Şuşada imzaladığı Birgə Bəyannamə də məhz sülh və təhlükəsizliyin, yeni əməkdaşlıq imkanlarının təşviq edilməsinə yönəlib".

# "Uşaq Qaynar Xətt" xidmətinin məqsədi uşaqlara təmənnasız kömək etməkdir

**Ölkəmizin parlaq gələcəyi üçün bu gün uşaqların sağlam mühitdə böyüməsi əsas şərtlərdən biridir. Təəssüf ki, hər bir cəmiyyətdə təzyiqlə üzləşən, sıxılan, hüquqları pozulan uşaq və yeniyetmələrə rast gəlmək olur.**




On bir ildən artıqdır ki, "Azercell"in, UNİCEF Azərbaycanın və "Ümidli Gələcək" Sosial Təşəbbüslər İctimai Birliyinin birgə əməkdaşlığı ilə fəaliyyət göstərən "Uşaq Qaynar Xətt" xidmətinin əsas məqsədi məhz müxtəlif çətinliklərlə üzləşən uşaqlara təmənnasız kömək etməkdir. Yarandığı ilk gündən etibarən bu xidmətin əməkdaşları həmyaşıdları ilə problem yaşayan, psixoloji və mənəvi yardıma ehtiyacı olan uşaqlara dəstək verir, onların sosial mühitə uyğunlaşmalarına yardım edir.

Xidmət cari ilin yanvar-may ayları ərzində 2386 müraciəti cavablandırıb. Müxtəlif sahələrlə bağlı edilən zənglərin böyük qismi (793 müraciət) təhsil sahəsinə aid olub. Beş ay ərzində qaynar xəttin ekspertləri hüquqi prosedurlara dair 481 müraciət qəbul ediblər. Yerdə qalan zənglər psixoloji (340 müraciət), sosial (236 müraciət), səhiyyə (137 müraciət) və digər məsələlərlə əlaqədar (399 müraciət) yardım istəyi ilə bağlı olub.

"Uşaq Qaynar Xətt" xidmətinə yalnız uşaqlar deyil, onların valideynləri və yaxınları da müraciət edirlər. Belə ki, yanvar-may aylarında mərkəzə daxil olan zənglərin 1772-si 18 yaşdan yuxarı, 506-sı isə uşaq və yeniyetmələr tərəfindən edilib. Yardım istəyənlərin 1203 nəfəri qadın, 1075-i kişi olub. Həmçinin mərkəzə sosial şəbəkələr üzərindən anonim formada müraciətlər edənlər də olub. Son 5 ay ərzində qaynar xətt tərəfindən 34 ailə ilə görüş həyata keçirilib, 94 sosial-psixoloji reabilitasiya işi aparılıb.

Qeyd edək ki, bu ilin ilk 5 ayı ərzində "Azərbaycan Uşaq Qaynar Xətt" xidməti tərəfindən onlayn vebinar və canlı yayımlar təşkil edilib. "Yeniyetməlik dövrünün psixoloji və fizioloji aspektləri" mövzusunda canlı yayım, yeniyetmə və gənclər üçün "İntihara son deyək!", "Özünü yalnız hissetmə sindromu" vebinarları sosial şəbəkə istifadəçiləri tərəfindən maraqla qarşılanıb.

Bu müddət ərzində uşaq və yeniyetmələr üçün "Klinik Müsahibələr", eləcə də "Uşaqlar və Ailələrlə sosial iş və reabilitasiyanın təşkili" təlimləri baş tutub. "Uşaq Qaynar Xətt" xidmətinin iştirakı ilə həm də ZOOM platformasında uşaq zorakılığına qarşı mübarizəyə həsr olunmuş 10 günlük beynəlxalq təlim keçirilib. Həmçinin sosial şəbəkələr üzərindən maarifləndirmə kampaniyaları da davam etdirilib.

Xatırladaq ki, 2017-ci ildə "Azercell" şirkətinin təşəbbüsü və dəstəyi ilə "Uşaq Qaynar Xətt" xidmətinin İOS və Android əməliyyat sistemləri üçün nəzərdə tutulan mobil tətbiqləri də istifadəyə verilib. "Azərbaycan Uşaq Qaynar Xətt" xidmətinə 24 saat xidmət göstərən 116111 qısa nömrəsi, +994 50 680 22 80, +994 51 580 22 80, +994 51 880 11 80, +994 51 880 22 80 mobil nömrələri, elektron poçt, "Facebook" və "Instagram" sosial şəbəkələri, mərkəzin saytındakı canlı çat və "uşaqqaynarxetti" mobil əlavəsi vasitəsilə müraciət etmək olar.

# 155 kiloqramadək narkotik vasitənin dövlət sərhədindən keçirilməsinin qarşısı alınıb

**Azərbaycan Respublikasının Dövlət Sərhəd Xidməti tərəfindən dövlət sərhədinin etibarlı mühafizəsinin təmin edilməsi, narkotik vasitələrin qanunsuz dövriyyəsinə qarşı mübarizə sahəsində sərhəd mühafizə və əməliyyat-axtarış fəaliyyətləri davam etdirilir.**





DSX-nin Mətbuat mərkəzindən bildiriblər ki, Dövlət Sərhəd Xidməti əməkdaşlarının həyata keçirdiyi əməliyyatlar nəticəsində cari ilin 14 iyun tarixində ümumi çəkisi 154 kiloqram 500 qram narkotik və psixotrop vasitələrə bənzər maddələrin İran İslam Respublikasından Azərbaycan Respublikasına keçirilməsinin qarşısı alınmışdır.

Həmin gün saat 03:00 radələrində Dövlət Sərhəd Xidməti Sərhəd Qoşunlarının "Horadiz" sərhəd dəstəsinin Cəbrayıl rayonu Mahmudlu kəndi yaxınlığında yerləşən sərhəd zastavasının ərazisində içərisində 1 nəfər olan "Ford" markalı 99-ZL-240 dövlət nömrə nişanlı avtomobilin əraziyə yaxınlaşması, avtomobildəki şəxsin düşərək özünü şübhəli aparması sərhəd naryadının diqqətini cəlb etmişdir.

Şübhəli şəxs sərhəd naryadının "Dayan" əmrinə tabe olmayaraq ərazidən uzaqlaşmağa cəhd göstərmiş, onun avtomobili təqib olunaraq Cəbrayıl rayonunun Cocuq Mərcanlı kəndi ərazisində saxlanılmışdır. Ağstafa rayon sakini 1993-cü il təvəllüdlü Musayev Samir Nəcəf oğlu olması müəyyənləşdirilmiş şəxsin idarə etdiyi avtomobilə baxış keçirilərkən 5 ədəd idman çantasının içərisində təxmini çəkisi 111 kiloqram 900 qram narkotik və psixotrop vasitəyə (70 kiloqram 120 qram heroin, 12 kiloqram 100 qram marixuana, 12 kiloqram 30 qram metamfetamin, 300 qram tiryək, 17 kiloqram 350 qram 4060 ədəd Metadon M-40 həbi və 2 ədəd 200 ml şüşədə narkotik tərkibli maye) bənzər maddələr aşkar olunaraq götürülmüşdür.

Narkotik maddələrin sifarişçilərinin müəyyənləşdirilməsi məqsədilə Baş Prokurorluğun və Daxili İşlər Nazirliyinin əməkdaşları ilə birgə keçirilmiş əməliyyat-axtarış tədbirləri nəticəsində Göygöl rayonu ərazisində həmin rayon sakini 1996-cı il təvəllüdlü Abdullayev Anar Elman oğlu saxlanılaraq istintaqa cəlb edilmişdir.

Eyni tarixdə saat 05:55 radələrində Dövlət Sərhəd Xidmətinin Sərhəd Qoşunlarının "Göytəpə" sərhəd dəstəsinin Cəlilabad rayonu Məlikqasımlı kəndi yaxınlığındakı sərhəd zastavasının xidməti ərazisində sərhəd naryadı tərəfindən 1 nəfər naməlum şəxsin İran İslam Respublikasından Azərbaycan Respublikası istiqamətində dövlət sərhədini pozması müşahidə olunmuşdur.

Sərhəd zastavası "Silaha" komandası üzrə qaldırılmış, xidməti ərazi qapadılmışdır. Sərhəd naryadı tərəfindən "Dayan" əmrinin verilməsinə və havaya xəbərdarlıq atəşi açılmasına baxmayaraq, sərhəd pozucusu əmrə tabe olmayaraq silahlı müqavimət göstərərkən sərhəd naryadı tərəfindən "Dövlət sərhədi haqqında" Azərbaycan Respublikası Qanununun tələblərinə tam uyğun olaraq silah tətbiq olunmuş və cinayətkar zərərsizləşdirilmişdir. Hadisə baş vermiş əraziyə baxış zamanı 2 ədəd çantanın içərisində təxmini çəkisi 42 kiloqram 600 qram narkotik və psixotrop vasitəyə (24 kiloqram 848 qram heroin, 9 kiloqram 250 qram metamfetamin, 2 kiloqram 70 qram marixuana, 3 kiloqram 310 qram həşiş qətranı, 3 kiloqram 122 qram 5020 ədəd Metodon-40 həbləri) bənzər maddələr və külli miqdarda xarici valyuta - 11500 ABŞ dolları aşkarlanmışdır.

Faktla bağlı İİR tərəfi dərhal məlumatlandırılmış, müqabil tərəfin sərhəd nümayəndəsinin və Azərbaycan Respublikasının prokurorluq orqanlarının əməkdaşlarının iştirakı ilə hadisə yerinə baxış keçirilərkən İran vətəndaşı Behnam İlhami olması müəyyən edilmiş sərhəd pozucusunun üzərindən sərhəd naryadına qarşı tətbiq etdiyi PM markalı tapança götürülmüşdür.

Hər iki fakt üzrə zəruri əməliyyat-istintaq hərəkətləri davam etdirilir.

***"Azərbaycan"***

# Baş Prokurorluğun "Instagram"dakı səhifəsində növbəti sual-cavab sessiyası keçiriləcək

**İyunun 18-də saat 09:00-dan 12:00-dək Baş Prokurorluğun "Instagram" sosial şəbəkəsindəki səhifəsində prokurorluqla bağlı sual-cavab sessiyası keçiriləcək.**

Baş Prokurorluğun Mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, vətəndaşlar sessiyada iştirak edərək prokurorluq orqanlarının fəaliyyəti ilə bağlı maraqlandıqları mövzularda suallarla müraciət edə bilərlər.

Azərbaycan Respublikasının prokurorluq orqanları müasir, vətəndaşyönümlü və onu məmnun edən tədbirlərin həyata keçirilməsini daim diqqət mərkəzində saxlayır. Bu tədbirlərin davamı kimi, vətəndaş məmnunluğunun və aşkarlığın təmin edilməsi məqsədilə prokurorluq orqanlarının fəaliyyəti ilə bağlı sosial şəbəkə səhifələrindən daxil olmuş çoxsaylı suallar mütəmadi qaydada cavablandırılır.

## Sumqayıt Şəhər İcra Hakimiyyəti
## "Dəftərxana və təsərrüfat xərcləri" paraqrafı üzrə müxtəlif növ kağızların, dəftərxana ləvazimatlarının
## *kotirovka sorğusu ilə satın alınmasını həyata keçirir*

Maraqlanan təşkilatlar (018) 6551448 telefon nömrəsi ilə əlaqə saxlaya bilərlər.

Kotirovka sorğusunda iştirak etmək üçün sənədlər qapalı zərfdə, imzalanıb möhürlənərək **25 iyun 2021-ci il saat 15:00-dək** Sumqayıt Şəhər İcra Hakimiyyətinə təqdim olunmalıdır.

**Ünvan: Sumqayıt şəhəri, Azərbaycan prospekti, 9**

***Tender komissiyası***

## "İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyi" Publik Hüquqi Şəxs
## *açıq tender elan edir*

Tender iştirakçıları **https://www.etender.gov.az** dövlət satınalmalarının vahid internet Portalına (Portal) elektron imzalar vasitəsilə daxil olmaqla tender haqqında ətraflı məlumatı əldə edə bilərlər.

Tender 2 - LOT üzrə keçirilir:

**LOT-1:** İcbari tibbi sığortanın Xidmətlər Zərfi çərçivəsində xidmət alan vətəndaşların məmnunluğunu ifadə edən bədii janrda videoçarxların hazırlanması xidmətlərinin satın alınması;
**LOT-2:** Sosial reklam çarxının hazırlanması xidmətinin satın alınması;
**LOT-3:** Reklam lövhələrinin üzərində yerləşdiriləcək məlumatların məzmununun və dizayn konsepsiyasının hazırlanması xidmətinin satın alınması;

İştirak haqqının ödənilməsi yalnız "ASAN ödəniş" vasitəsilə həyata keçirilə bilər. Müsabiqədə iştirak etmək üçün Portal üzərindən müsabiqəyə daxil olduqdan sonra "ASAN ödəniş et" düyməsini sıxaraq aidiyyəti keçid vasitəsilə ödənişi etdikdən sonra müsabiqədə iştirak etmək olar.

**İştirak haqqı:**
**LOT-1. 200.00 (iki yüz) manat;**
**LOT-2. 150.00 (bir yüz əlli) manat:**
**LOT-3. 30.00 (otuz) manat.**
**İştirak haqqı heç bir halda geri qaytarılmır.**
**Təşkilat: "İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyi" Publik Hüquqi Şəxs**
**VÖEN: 1701911851**
**Hesab: AZ52AIIB38090019440013375105**
**Bank: Kapital Bank ASC Səbail filialı**
**Bankın VÖEN-i: 9900003611**
**Kod: 200059**
**Müxbir hesabı: AZ37NABZ01350100000000001944**
**S.W.I.F.T.BIK -AIIBAZ2X**

İddiaçılar tenderdə iştirak etmək üçün aşağıdakı sənədləri təqdim etməlidirlər:

*1) Tenderdə iştirak haqqının ödənilməsi barədə bank sənədi;*
*2) Vergilərə və digər icbari ödənişlərə dair yerinə yetirilməsi vaxtı keçmiş öhdəliklərin olmaması haqqında vergi orqanından arayış;*
*3) İddiaçının son bir ildəki (əgər daha az müddət fəaliyyət göstərirsə, bütün fəaliyyəti dövründəki) maliyyə vəziyyəti barədə bank tərəfindən verilmiş arayış;*
*4) İddiaçının son bir ildəki fəaliyyəti haqqında vergi orqanları tərəfindən təsdiq olunmuş maliyyə hesabatının surəti (bir ildən az müddətə fəaliyyət göstərirsə, həmin dövrü əhatə edən maliyyə hesabatının surəti);*
*5) Tender təklifi (təkliflərin açıldığı tarixdən sonra azı 30 bank günü qüvvədə olmalıdır);*
*6) Tender təklifi dəyərinin 1 faizi həcmində bank təminatı (təminatın qüvvədə olma müddəti tender təklifinin qüvvədə olma müddətindən 30 bank günü çox olmalıdır);*
*7) Tender iştirakçısının müflis elan olunmaması, əmlakı üzərinə həbs qoyulmaması, ödənişə yönəlmiş girovun olmaması, məhkəmənin qərarı ilə kommersiya fəaliyyəti dayandırılmış şəxs olmaması barədə məlumat;*
*8) Tender iştirakçısının satınalma prosedurlarının başlanmasından əvvəlki 5 il ərzində özünün, habelə işlərini idarə edənlərin, qulluqçularının peşəkar fəaliyyətləri, yaxud satınalma müqaviləsinin bağlanması üçün ixtisas göstəricilərini yanlış göstərmələri ilə əlaqədar cinayətə görə məhkum olunmaması, yaxud onların müvafiq peşə fəaliyyətləri ilə məşğul olmasının məhkəmə qaydasında qadağan edilməməsi barədə məlumat;*
*9) Tender iştirakçısının satınalma müqaviləsini bağlamaq səlahiyyəti olmasının təsdiqi kimi kiçik, orta, yaxud hüquqi şəxslər birliyinin daxilində mikro sahibkarlıq subyekti olması haqqında müvafiq səlahiyyətli orqan tərəfindən verilmiş arayış;*
*10) Tender iştirakçısının Azərbaycan Respublikasında vergilərə və digər icbari ödənişlərə dair yerinə yetirilməsi vaxtı keçmiş öhdəliklərinin, habelə son bir il ərzində (fəaliyyətini dayandırdığı müddət nəzərə alınmadan) vergiödəyicisinin Azərbaycan Respublikasının Vergi Məcəlləsi ilə müəyyən edilmiş vəzifələrinin yerinə yetirilməməsi hallarının mövcud olmaması haqqında vergi orqanı tərəfindən verilmiş arayış;*
*11) Tender təklifini və satınalma müqaviləsini imzalamaq səlahiyyətinə malik olan şəxsin səlahiyyətlərini təsdiq edən sənəd (vəzifəyə təyin edilməsi barədə əmrin təsdiq olunmuş surəti və ya müvafiq səlahiyyətin verilməsi barədə etibarnamə);*
*12) İddiaçının tam adı, hüquqi statusu, nizamnaməsi, qeydiyyatdan keçdiyi ölkə və rekvizitləri;*
*13) Tenderin Əsas şərtlər toplusunda göstərilən bütün digər sənədlər.*

Qeyd olunan sənədlər Azərbaycan dilində, düzgün tərtib olunub vaxtında təqdim edildiyi təqdirdə, satınalan təşkilat tenderdə iştirak etmək istəyən malgöndərəni (podratçını) iddiaçı kimi qeydə alacaqdır.

Tender proseduru "Dövlət satınalmaları haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun keçiriləcəkdir. İddiaçılar tenderdə iştirak etmək üçün ixtisas göstəricilərinə dair sənədləri **08.07.2021-ci il saat 18:00-dək,** tender təklifi və tender təklifinin bank təminatını isə **16.07.2021-ci il saat 18:00-dək** Portal vasitəsilə təqdim etməlidirlər.

İddiaçının təklifləri **19.07.2021-ci il saat 18:00-da** Portal vasitəsilə açılacaqdır. İddiaçılar açılışın nəticələri ilə Portal vasitəsilə tanış ola bilərlər. İddiaçılar tender ilə bağlı sualları vahid internet Portalında nəzərdə tutulmuş müvafiq bölmədə satınalan təşkilata ünvanlaya bilərlər. İddiaçı Əsas şərtlər toplusunun məzmununu, o cümlədən təlimatları, formaları və şərtləri tam olaraq öyrənməlidir. Əsas şərtlər toplusunu almış iddiaçının Əsas şərtlər toplusunun məzmunundan, o cümlədən təlimatlardan, forma və şərtlərdən kənar təklif verməsi onu bu məsuliyyətdən azad etmir. Müqaviləni yerinə yetirmək üçün tender iştirakçıları lazımi maliyyə və texniki imkanlara malik olmalıdırlar.

***QEYD:*** *Tenderdə iştirak, tenderin qiymətləndirilməsi və digər bütün prosedurlar yalnız elektron qaydada Portal vasitəsilə aparılır.*

***Tender komissiyası***

## Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin tabeliyində Dövlət Sosial Müdafiə Fondu PHŞ Dövlət Sosial Müdafiə Fondunun 7 saylı regional ərazi filialının Astara qəbul şöbəsinin inzibati binasının cari təmir işləri üzrə xidmətin satınalması üzrə
## *açıq tender elan edir*

Tender iştirakçılarına təklif edilir ki, **https://www.etender.gov.az/** - dövlət satınalmalarının vahid internet Portalına (Portal) elektron imzaları vasitəsilə daxil olsunlar və tender haqqında ətraflı məlumatı əldə etsinlər. Müqaviləni yerinə yetirmək üçün tender iştirakçıları lazımi maliyyə, texniki imkanlara və təcrübəyə malik olmalıdırlar. Tenderdə iştirak etmək istəyən təşkilatlar müəyyən edilən məbləğdə iştirak haqqını göstərilən hesaba köçürdükdən sonra müsabiqə üzrə təkliflərini Portal vasitəsilə təqdim edə bilərlər.

**Tender 1 LOT üzrə keçirilir.**
**İştirak haqqı: 150,00 (bir yüz əlli) manat**
**VÖEN: 1300050781**
**Bank: Dövlət Xəzinədarlığı Agentliyi**
**H/h: AZ46CTRE00000000000007018504**
**M/h: AZ41NABZ01360100000000003944**
**VÖEN: 1401555071**
**Kod: 210005**
**SWIFT: CTREAZ22**
**Büdcə gəlirlərinin təsnifat kodu: -142330**
**Büdcə səviyyəsinin kodu: - 4**
**"Dövlət satınalmaları haqqında" Azərbaycan Respublikası Qanununun 29.2-ci maddəsinə əsasən tenderdə iştirak haqqı geri qaytarılmır.**

İddiaçılar tenderdə iştirak etmək üçün aşağıdakı sənədləri təqdim etməlidirlər:

*1. İddiaçının tam adı, hüquqi statusu, nizamnaməsi, qeydiyyatdan keçdiyi ölkə və rekvizitləri (Sənədin əsli skan edilməli və PDF formatında yerləşdirilməlidir. Əgər sənəd elektron formada alınıbsa, notarial təsdiq edilməsi mütləqdir);*
*2. Tender təklifi (təkliflərin açıldığı tarixdən sonra ən azı 30 bank günü qüvvədə olmalıdır);*
*3. Tender təklifi dəyərinin 1 faizi həcmində bank təminatı (tender təklifinin təminatının qüvvədə olma müddəti tender təklifinin qüvvədə olma müddətindən 30 bank günü çox olmalıdır);*
*4. Azərbaycan Respublikasında vergilərə və digər icbari ödənişlərə dair yerinə yetirilməsi vaxtı keçmiş öhdəliklərinin, habelə son bir il ərzində (fəaliyyətini dayandırdığı müddət nəzərə alınmadan) vergi ödəyicisinin Azərbaycan Respublikasının Vergi Məcəlləsi ilə müəyyən edilmiş vəzifələrinin yerinə yetirilməməsi hallarının mövcud olmaması (Uçotda olduğu vergi orqanından alınmalıdır. Sənədin əsli skan edilməli və PDF formatında yerləşdirilməlidir. Əgər sənəd elektron formada alınıbsa, notarial təsdiq edilməsi mütləqdir) Müvafiq orqanlardan tələb olunan sənədlərin alınması cari ayı əhatə etməsi mütləqdir;*
*5. İddiaçının son bir ildəki fəaliyyəti haqqında vergi orqanları tərəfindən təsdiq olunmuş maliyyə hesabatının surəti (2020-ci il üzrə);*
*6. İddiaçının son bir ildəki maliyyə vəziyyəti haqqında bank arayışı (sənədin əsli skan edilməli və PDF formatında yerləşdirilməlidir. Əgər sənəd elektron formada alınıbsa, notarial təsdiq edilməsi mütləqdir) Müvafiq orqanlardan tələb olunan sənədlərin alınması cari ayı əhatə etməsi mütləqdir;*
*7. Satınalma müqaviləsinin icrasını təmin etmək üçün müvafiq sahədə peşəkarlığının, təcrübəsinin, texniki imkanlarının, işçi qüvvəsinin, idarəetmə səriştəsinin, etibarlığının olması barədə təsdiqedici sənəd (Malgöndərən (podratçı) tərəfindən hazırlanır);*
*8. Satınalma müqaviləsini bağlamaq səlahiyyətinin olması (malgöndərənin (podratçının) kommersiya qurumunun dövlət reyestrindən çıxarışın və vergi uçotunda olduğunu təsdiq edən sənəd (notarial təsdiq edilmiş);*
*9. Mikro, kiçik və orta sahibkarlıq meyarlarına uyğun olması barədə məlumat (Dövlət Statistika Komitəsindən alınmalıdır. Sənədin əsli skan edilməli və PDF formatında yerləşdirilməlidir. Əgər sənəd elektron formada alınıbsa, notarial təsdiq edilməsi mütləqdir) Müvafiq orqanlardan tələb olunan sənədlərin alınması cari ayı əhatə etməsi mütləqdir;*
*10. Öz əmlakından sərbəst və məhdudiyyətsiz istifadə etmək imkanı, habelə ödəmə qabiliyyəti olması (Uçotda olduğu vergi orqanından alınmalıdır. Sənədin əsli skan edilməli və PDF formatında yerləşdirilməlidir. Əgər sənəd elektron formada alınıbsa, notarial təsdiq edilməsi mütləqdir) Müvafiq orqanlardan tələb olunan sənədlərin alınması cari ayı əhatə etməsi mütləqdir;*
*11. Müflis elan olunmaması, əmlakı üzərinə həbs qoyulmaması, ödənişə yönəlmiş girovun olmaması, məhkəmənin qərarı ilə kommersiya fəaliyyəti dayandırılmış şəxs olmaması barədə məlumat (Ədliyyə Nazirliyindən və ya kommersiya məhkəməsindən alınır) Müvafiq orqanlardan tələb olunan sənədlərin alınması cari ayı əhatə etməsi mütləqdir;*
*12. Satınalma prosedurlarının başlanmasından əvvəlki 5 il ərzində özlərinin, habelə işlərini idarə edənlərin, qulluqçularının peşəkar fəaliyyətləri, yaxud satınalma müqaviləsinin bağlanması üçün ixtisas göstəricilərini yanlış göstərmələri ilə əlaqədar cinayətə görə məhkum olunmaması, yaxud onların müvafiq peşə fəaliyyətləri ilə məşğul olmasının məhkəmə qaydasında qadağan edilməməsi barədə məlumat (Malgöndərən (podratçı) Daxili İşlər Nazirliyindən və ya "ASAN xidmət" mərkəzlərindən (məhkumluq ilə bağlı arayış) alır. Müvafiq orqanlardan tələb olunan sənədlərin alınması cari ayı əhatə etməsi mütləqdir;*
*13. Müvafiq sahibkarlıq fəaliyyəti növünün həyata keçirilməsi və ya müəyyən hərəkətlərin yerinə yetirilməsi üçün müvafiq lisenziyaya və ya icazəyə malik olmasını təsdiq edən sənəd.*

Satınalan təşkilat ilə elektron satınalmanın iştirakçıları və ya onların özü arasında yalnız dövlət satınalmalarının vahid internet Portalı vasitəsilə əlaqə saxlanılır.

Dövlət satınalmalarını tənzimləyən normativ-hüquqi sənədlərdə göstərilən hallar istisna olmaqla, istənilən rezident və qeyri-rezident hüquqi və ya fiziki şəxslər, yaxud hüquqi şəxslər birliyi dövlət mənsubiyyətindən asılı olmayaraq, yalnız mikro, kiçik və orta sahibkarlıq subyektlərinin iştirakı ilə Azərbaycan Respublikasında keçirilən elektron satınalma prosedurlarında iddiaçı kimi iştirak edə bilərlər.

Satınalan təşkilatdan hüquqi, maliyyə və ya təşkilati asılılığı olan iddiaçıların həmin təşkilat tərəfindən keçirilən satınalma prosedurlarında iştirakına yol verilmir.

Sənədlər Azərbaycan dilində tərtib olunmalıdır (xarici dildə olan tender sənədləri Azərbaycan dilinə tərcümə olunmalıdır). İddiaçılar tender ilə bağlı sualları Portal vasitəsilə satınalan təşkilata ünvanlaya bilərlər. Tender proseduru "Dövlət satınalmaları haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun keçiriləcəkdir. İddiaçılar tenderdə iştirak etmək üçün ixtisas göstəricilərinə dair sənədləri **08.07.2021-ci il saat 14:00-a** qədər, tender təklifi ilə bank təminatı sənədlərini **16.07.2021-ci il saat 14:00-a** qədər Portal vasitəsilə təqdim etməlidirlər. İddiaçıların təklifləri **19.07.2021-ci il saat 14:00-da** açılacaqdır. İddiaçılar açılışın nəticələri ilə Portal vasitəsilə tanış ola bilərlər.

***QEYD:*** Tenderdə iştirak, tenderin qiymətləndirilməsi və digər bütün prosedurlar yalnız elektron qaydada Portal vasitəsilə aparılır.

***Tender komissiyası***

## Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin tabeliyində Dövlət Sosial Müdafiə Fondu PHŞ Dövlət Sosial Müdafiə Fondunun 7 saylı regional ərazi filialının Lerik qəbul şöbəsinin inzibati binasının cari təmir işləri üzrə xidmətin satınalması üzrə
## *açıq tender elan edir*

Tender iştirakçılarına təklif edilir ki, **https://www.etender.gov.az/** - dövlət satınalmalarının vahid internet Portalına (Portal) elektron imzaları vasitəsilə daxil olsunlar və tender haqqında ətraflı məlumatı əldə etsinlər. Müqaviləni yerinə yetirmək üçün tender iştirakçıları lazımi maliyyə, texniki imkanlara və təcrübəyə malik olmalıdırlar. Tenderdə iştirak etmək istəyən təşkilatlar müəyyən edilən məbləğdə iştirak haqqını göstərilən hesaba köçürdükdən sonra müsabiqə üzrə təkliflərini Portal vasitəsilə təqdim edə bilərlər.

**Tender 1 LOT üzrə keçirilir.**
**İştirak haqqı: 300,00 (üç yüz) manat**
**VÖEN: 1300050781**
**Bank: Dövlət Xəzinədarlığı Agentliyi**
**H/h: AZ46CTRE00000000000007018504**
**M/h: AZ41NABZ01360100000000003944**
**VÖEN: 1401555071**
**Kod: 210005**
**SWIFT: CTREAZ22**
**Büdcə gəlirlərinin təsnifat kodu: -142330**
**Büdcə səviyyəsinin kodu: - 4**
**"Dövlət satınalmaları haqqında" Azərbaycan Respublikası Qanununun 29.2-ci maddəsinə əsasən tenderdə iştirak haqqı geri qaytarılmır.**

İddiaçılar tenderdə iştirak etmək üçün aşağıdakı sənədləri təqdim etməlidirlər:

*1. İddiaçının tam adı, hüquqi statusu, nizamnaməsi, qeydiyyatdan keçdiyi ölkə və rekvizitləri (Sənədin əsli skan edilməli və PDF formatında yerləşdirilməlidir. Əgər sənəd elektron formada alınıbsa, notarial təsdiq edilməsi mütləqdir);*
*2. Tender təklifi (təkliflərin açıldığı tarixdən sonra ən azı 30 bank günü qüvvədə olmalıdır);*
*3. Tender təklifi dəyərinin 1 faizi həcmində bank təminatı (tender təklifinin təminatının qüvvədə olma müddəti tender təklifinin qüvvədə olma müddətindən 30 bank günü çox olmalıdır);*
*4. Azərbaycan Respublikasında vergilərə və digər icbari ödənişlərə dair yerinə yetirilməsi vaxtı keçmiş öhdəliklərinin, habelə son bir il ərzində (fəaliyyətini dayandırdığı müddət nəzərə alınmadan) vergi ödəyicisinin Azərbaycan Respublikasının Vergi Məcəlləsi ilə müəyyən edilmiş vəzifələrinin yerinə yetirilməməsi hallarının mövcud olmaması (Uçotda olduğu vergi orqanından alınmalıdır. Sənədin əsli skan edilməli və PDF formatında yerləşdirilməlidir. Əgər sənəd elektron formada alınıbsa, notarial təsdiq edilməsi mütləqdir) Müvafiq orqanlardan tələb olunan sənədlərin alınması cari ayı əhatə etməsi mütləqdir;*
*5. İddiaçının son bir ildəki fəaliyyəti haqqında vergi orqanları tərəfindən təsdiq olunmuş maliyyə hesabatının surəti (2020-ci il üzrə);*
*6. İddiaçının son bir ildəki maliyyə vəziyyəti haqqında bank arayışı (sənədin əsli skan edilməli və PDF formatında yerləşdirilməlidir. Əgər sənəd elektron formada alınıbsa, notarial təsdiq edilməsi mütləqdir) Müvafiq orqanlardan tələb olunan sənədlərin alınması cari ayı əhatə etməsi mütləqdir;*
*7. Satınalma müqaviləsinin icrasını təmin etmək üçün müvafiq sahədə peşəkarlığının, təcrübəsinin, texniki imkanlarının, işçi qüvvəsinin, idarəetmə səriştəsinin, etibarlığının olması barədə təsdiqedici sənəd (Malgöndərən (podratçı) tərəfindən hazırlanır);*
*8. Satınalma müqaviləsini bağlamaq səlahiyyətinin olması (malgöndərənin (podratçının) kommersiya qurumunun dövlət reyestrindən çıxarışın və vergi uçotunda olduğunu təsdiq edən sənəd (notarial təsdiq edilmiş);*
*9. Mikro, kiçik və orta sahibkarlıq meyarlarına uyğun olması barədə məlumat ( Dövlət Statistika Komitəsindən alınmalıdır. Sənədin əsli skan edilməli və PDF formatında yerləşdirilməlidir. Əgər sənəd elektron formada alınıbsa, notarial təsdiq edilməsi mütləqdir) Müvafiq orqanlardan tələb olunan sənədlərin alınması cari ayı əhatə etməsi mütləqdir;*
*10. Öz əmlakından sərbəst və məhdudiyyətsiz istifadə etmək imkanı, habelə ödəmə qabiliyyəti olması (Uçotda olduğu vergi orqanından alınmalıdır. Sənədin əsli skan edilməli və PDF formatında yerləşdirilməlidir. Əgər sənəd elektron formada alınıbsa, notarial təsdiq edilməsi mütləqdir) Müvafiq orqanlardan tələb olunan sənədlərin alınması cari ayı əhatə etməsi mütləqdir;*
*11. Müflis elan olunmaması, əmlakı üzərinə həbs qoyulmaması, ödənişə yönəlmiş girovun olmaması, məhkəmənin qərarı ilə kommersiya fəaliyyəti dayandırılmış şəxs olmaması barədə məlumat (Ədliyyə Nazirliyindən və ya kommersiya məhkəməsindən alınır) Müvafiq orqanlardan tələb olunan sənədlərin alınması cari ayı əhatə etməsi mütləqdir;*
*12. Satınalma prosedurlarının başlanmasından əvvəlki 5 il ərzində özlərinin, habelə işlərini idarə edənlərin, qulluqçularının peşəkar fəaliyyətləri, yaxud satınalma müqaviləsinin bağlanması üçün ixtisas göstəricilərini yanlış göstərmələri ilə əlaqədar cinayətə görə məhkum olunmaması, yaxud onların müvafiq peşə fəaliyyətləri ilə məşğul olmasının məhkəmə qaydasında qadağan edilməməsi barədə məlumat (Malgöndərən (podratçı) Daxili İşlər Nazirliyindən və ya "ASAN xidmət" mərkəzlərindən (məhkumluq ilə bağlı arayış) alır. Müvafiq orqanlardan tələb olunan sənədlərin alınması cari ayı əhatə etməsi mütləqdir;*
*13. Müvafiq sahibkarlıq fəaliyyəti növünün həyata keçirilməsi və ya müəyyən hərəkətlərin yerinə yetirilməsi üçün müvafiq lisenziyaya və ya icazəyə malik olmasını təsdiq edən sənəd.*

Satınalan təşkilat ilə elektron satınalmanın iştirakçıları və ya onların özü arasında yalnız dövlət satınalmalarının vahid internet Portalı vasitəsilə əlaqə saxlanılır.

Dövlət satınalmalarını tənzimləyən normativ-hüquqi sənədlərdə göstərilən hallar istisna olmaqla, istənilən rezident və qeyri-rezident hüquqi və ya fiziki şəxslər, yaxud hüquqi şəxslər birliyi dövlət mənsubiyyətindən asılı olmayaraq, yalnız mikro, kiçik və orta sahibkarlıq subyektlərinin iştirakı ilə Azərbaycan Respublikasında keçirilən elektron satınalma prosedurlarında iddiaçı kimi iştirak edə bilərlər.

Satınalan təşkilatdan hüquqi, maliyyə və ya təşkilati asılılığı olan iddiaçıların həmin təşkilat tərəfindən keçirilən satınalma prosedurlarında iştirakına yol verilmir.

Sənədlər Azərbaycan dilində tərtib olunmalıdır (xarici dildə olan tender sənədləri Azərbaycan dilinə tərcümə olunmalıdır). İddiaçılar tender ilə bağlı sualları Portal vasitəsilə satınalan təşkilata ünvanlaya bilərlər. Tender proseduru "Dövlət satınalmaları haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun keçiriləcəkdir. İddiaçılar tenderdə iştirak etmək üçün ixtisas göstəricilərinə dair sənədləri **08.07.2021-ci il saat 16:00-a** qədər, tender təklifi ilə bank təminatı sənədlərini **16.07.2021-ci il saat 16:00-a** qədər Portal vasitəsilə təqdim etməlidirlər. İddiaçıların təklifləri **19.07.2021-ci il saat 16:00-da** açılacaqdır. İddiaçılar açılışın nəticələri ilə Portal vasitəsilə tanış ola bilərlər.

***QEYD:*** Tenderdə iştirak, tenderin qiymətləndirilməsi və digər bütün prosedurlar yalnız elektron qaydada Portal vasitəsilə aparılır.

***Tender komissiyası***

## Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin tabeliyində Dövlət Sosial Müdafiə Fondu PHŞ Dövlət Sosial Müdafiə Fondunun Şabran rayon xidmət nümayəndəliyinin qəbul şöbəsinin inzibati binasının cari təmir işləri üzrə xidmətin satınalması üzrə
## *açıq tender elan edir*

Tender iştirakçılarına təklif edilir ki, **https://www.etender.gov.az/** - dövlət satınalmalarının vahid internet Portalına (Portal) elektron imzaları vasitəsilə daxil olsunlar və tender haqqında ətraflı məlumatı əldə etsinlər. Müqaviləni yerinə yetirmək üçün tender iştirakçıları lazımi maliyyə, texniki imkanlara və təcrübəyə malik olmalıdırlar. Tenderdə iştirak etmək istəyən təşkilatlar müəyyən edilən məbləğdə iştirak haqqını göstərilən hesaba köçürdükdən sonra müsabiqə üzrə təkliflərini Portal vasitəsilə təqdim edə bilərlər.

**Tender 1 LOT üzrə keçirilir.**
**İştirak haqqı: 300 (üç yüz) manat**
**VÖEN: 1300050781**
**Bank: Dövlət Xəzinədarlığı Agentliyi**
**H/h: AZ46CTRE00000000000007018504**
**M/h: AZ41NABZ01360100000000003944**
**VÖEN: 1401555071**
**Kod: 210005**
**SWIFT: CTREAZ22**
**Büdcə gəlirlərinin təsnifat kodu: -142330**
**Büdcə səviyyəsinin kodu: - 4**
**"Dövlət satınalmaları haqqında" Azərbaycan Respublikası Qanununun 29.2-ci maddəsinə əsasən tenderdə iştirak haqqı geri qaytarılmır.**

İddiaçılar tenderdə iştirak etmək üçün aşağıdakı sənədləri təqdim etməlidirlər:

*1. İddiaçının tam adı, hüquqi statusu, nizamnaməsi, qeydiyyatdan keçdiyi ölkə və rekvizitləri (Sənədin əsli skan edilməli və PDF formatında yerləşdirilməlidir. Əgər sənəd elektron formada alınıbsa, notarial təsdiq edilməsi mütləqdir);*
*2. Tender təklifi (təkliflərin açıldığı tarixdən sonra ən azı 30 bank günü qüvvədə olmalıdır);*
*3. Tender təklifi dəyərinin 1 faizi həcmində bank təminatı (tender təklifinin təminatının qüvvədə olma müddəti tender təklifinin qüvvədə olma müddətindən 30 bank günü çox olmalıdır);*
*4. Azərbaycan Respublikasında vergilərə və digər icbari ödənişlərə dair yerinə yetirilməsi vaxtı keçmiş öhdəliklərinin, habelə son bir il ərzində (fəaliyyətini dayandırdığı müddət nəzərə alınmadan) vergi ödəyicisinin Azərbaycan Respublikasının Vergi Məcəlləsi ilə müəyyən edilmiş vəzifələrinin yerinə yetirilməməsi hallarının mövcud olmaması (Uçotda olduğu vergi orqanından alınmalıdır. Sənədin əsli skan edilməli və PDF formatında yerləşdirilməlidir. Əgər sənəd elektron formada alınıbsa, notarial təsdiq edilməsi mütləqdir) Müvafiq orqanlardan tələb olunan sənədlərin alınması cari ayı əhatə etməsi mütləqdir;*
*5. İddiaçının son bir ildəki fəaliyyəti haqqında vergi orqanları tərəfindən təsdiq olunmuş maliyyə hesabatının surəti (2020-ci il üzrə);*
*6. İddiaçının son bir ildəki maliyyə vəziyyəti haqqında bank arayışı (sənədin əsli skan edilməli və PDF formatında yerləşdirilməlidir. Əgər sənəd elektron formada alınıbsa, notarial təsdiq edilməsi mütləqdir) Müvafiq orqanlardan tələb olunan sənədlərin alınması cari ayı əhatə etməsi mütləqdir;*
*7. Satınalma müqaviləsinin icrasını təmin etmək üçün müvafiq sahədə peşəkarlığının, təcrübəsinin, texniki imkanlarının, işçi qüvvəsinin, idarəetmə səriştəsinin, etibarlığının olması barədə təsdiqedici sənəd (Malgöndərən (podratçı) tərəfindən hazırlanır);*
*8. Satınalma müqaviləsini bağlamaq səlahiyyətinin olması (malgöndərənin (podratçının) kommersiya qurumunun dövlət reyestrindən çıxarışın və vergi uçotunda olduğunu təsdiq edən sənəd (notarial təsdiq edilmiş);*
*9. Mikro, kiçik və orta sahibkarlıq meyarlarına uyğun olması barədə məlumat (Dövlət Statistika Komitəsindən alınmalıdır. Sənədin əsli skan edilməli və PDF formatında yerləşdirilməlidir. Əgər sənəd elektron formada alınıbsa, notarial təsdiq edilməsi mütləqdir) Müvafiq orqanlardan tələb olunan sənədlərin alınması cari ayı əhatə etməsi mütləqdir;*
*10. Öz əmlakından sərbəst və məhdudiyyətsiz istifadə etmək imkanı, habelə ödəmə qabiliyyəti olması (Uçotda olduğu vergi orqanından alınmalıdır. Sənədin əsli skan edilməli və PDF formatında yerləşdirilməlidir. Əgər sənəd elektron formada alınıbsa, notarial təsdiq edilməsi mütləqdir) Müvafiq orqanlardan tələb olunan sənədlərin alınması cari ayı əhatə etməsi mütləqdir;*
*11. Müflis elan olunmaması, əmlakı üzərinə həbs qoyulmaması, ödənişə yönəlmiş girovun olmaması, məhkəmənin qərarı ilə kommersiya fəaliyyəti dayandırılmış şəxs olmaması barədə məlumat (Ədliyyə Nazirliyindən və ya kommersiya məhməkəməsindən alınır) Müvafiq orqanlardan tələb olunan sənədlərin alınması cari ayı əhatə etməsi mütləqdir;*
*12. Satınalma prosedurlarının başlanmasından əvvəlki 5 il ərzində özlərinin, habelə işlərini idarə edənlərin, qulluqçularının peşəkar fəaliyyətləri, yaxud satınalma müqaviləsinin bağlanması üçün ixtisas göstəricilərini yanlış göstərmələri ilə əlaqədar cinayətə görə məhkum olunmaması, yaxud onların müvafiq peşə fəaliyyətləri ilə məşğul olmasının məhkəmə qaydasında qadağan edilməməsi barədə məlumat (Malgöndərən (podratçı) Daxili İşlər Nazirliyindən və ya "ASAN xidmət" mərkəzlərindən (məhkumluq ilə bağlı arayış) alır. Müvafiq orqanlardan tələb olunan sənədlərin alınması cari ayı əhatə etməsi mütləqdir;*
*13. Müvafiq sahibkarlıq fəaliyyəti növünün həyata keçirilməsi və ya müəyyən hərəkətlərin yerinə yetirilməsi üçün müvafiq lisenziyaya və ya icazəyə malik olmasını təsdiq edən sənəd.*

Satınalan təşkilat ilə elektron satınalmanın iştirakçıları və ya onların özü arasında yalnız dövlət satınalmalarının vahid internet Portalı vasitəsilə əlaqə saxlanılır.

Dövlət satınalmalarını tənzimləyən normativ-hüquqi sənədlərdə göstərilən hallar istisna olmaqla, istənilən rezident və qeyri-rezident hüquqi və ya fiziki şəxslər, yaxud hüquqi şəxslər birliyi dövlət mənsubiyyətindən asılı olmayaraq, yalnız mikro, kiçik və orta sahibkarlıq subyektlərinin iştirakı ilə Azərbaycan Respublikasında keçirilən elektron satınalma prosedurlarında iddiaçı kimi iştirak edə bilərlər.

Satınalan təşkilatdan hüquqi, maliyyə və ya təşkilati asılılığı olan iddiaçıların həmin təşkilat tərəfindən keçirilən satınalma prosedurlarında iştirakına yol verilmir.

Sənədlər Azərbaycan dilində tərtib olunmalıdır (xarici dildə olan tender sənədləri Azərbaycan dilinə tərcümə olunmalıdır). İddiaçılar tender ilə bağlı sualları Portal vasitəsilə satınalan təşkilata ünvanlaya bilərlər. Tender proseduru "Dövlət satınalmaları haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun keçiriləcəkdir. İddiaçılar tenderdə iştirak etmək üçün ixtisas göstəricilərinə dair sənədləri **08.07.2021-ci il saat 15:00-a** qədər, tender təklifi ilə bank təminatı sənədlərini **16.07.2021-ci il saat 15:00-a** qədər Portal vasitəsilə təqdim etməlidirlər. İddiaçıların təklifləri **19.07.2021-ci il saat 15:00-da** açılacaqdır. İddiaçılar açılışın nəticələri ilə Portal vasitəsilə tanış ola bilərlər.

***QEYD:*** Tenderdə iştirak, tenderin qiymətləndirilməsi və digər bütün prosedurlar yalnız elektron qaydada Portal vasitəsilə aparılır.

***Tender komissiyası***

## Azərbaycan Respublikasının Sahibkarlığın İnkişafı Fondu Qiymətli kağızlar ilə aparılan əməliyyatlarla bağlı müştəri sifarişlərinin qəbul və icra edilməsi üzrə xidmətlərin satın alınması məqsədilə

### *açıq tender elan edir*

Tender iştirakçılarına təklif edilir ki, dövlət satınalmalarının **https://www.etender.gov.az/** vahid internet Portalına (Portal) elektron imzaları vasitəsilə daxil olsunlar və tender haqqında ətraflı məlumatı əldə etsinlər. Müqaviləni yerinə yetirmək üçün tender iştirakçıları lazımi maliyyə və texniki imkanlara malik olmalıdırlar. Tenderdə iştirak etmək istəyən təşkilatlar müəyyən məbləğdə iştirak haqqını göstərilən hesaba köçürdükdən sonra müsabiqə üçün təkliflərini Portal vasitəsilə təqdim edə bilərlər.

**İştirak haqqı 120 manatdır.**
**Sahibkarlığın İnkişafı Fondu**
**VÖEN: 1305619841**
**Hesablaşma hesabı: AZ03PAHA36015AZNHC0100089628**
**Bankın adı: PAŞA Bank ASC**
**Kod: 505141**
**VÖEN: 1700767721**
**Müxbir hesab: AZ82NABZ01350100000000071944**
**S.W.I.F.T. PAHAAZ22**
**İştirak haqqı heç bir halda geri qaytarılmır.**

İddiaçılar tenderdə iştirak üçün aşağıdakı sənədləri təqdim etməlidirlər:
- *tender təklifi (zərflərin açıldığı tarixdən sonra ən azı 30 bank günü qüvvədə olmalıdır);*
- *tender təklifi dəyərinin 1 faizi həcmində bank təminatı (tender təklifinin qüvvədə olma müddətindən 30 bank günü çox);*
